

Quliyev Əyyub Salah oğlu
Anadan olduğu yer Naxçıvan Respublikası, Şahbuz rayonu
Təvəllüdü 01.06.1954
Bitirdiyi ali təhsil müəssisəsi Azərbaycan Dövlət Universiteti
Elmi dərəcəsi Fizika-riyaziyyat elmləri doktoru
Elmi rütbəsi Professor

Namizədlik (PhD) dissertasiyasının mövzusu:
- ixtisas şifri
Böyük planetlərin komet ailələrinin xüsusiyyətləri
Doktorluq dissertasiyasının mövzusu:
Heliofizika və Günəş sisteminin cisimlərinin fizikası
Periodik, aralıq və uzunperiodlu kometlərin kosmoqonil xarakterisikaları
Müxbir üzv seçilməsi
Çapdan çıxmış elmi əsərlərinin ümumi sayı
- xaricdə çıxmış elmi əsərlərinin sayı
- beynəlxalq bazalarda referatlaşdırılan və indeksləşdirilən jurnallarda çap olunan məqalələrin sayı
Əsas elmi nailiyyətləri
Komet sistemində effetlərin aşkar olunması
Kometlərin parçalanması üzrə yeni nəzəriyyə
Hiperbolik komet və meteorların əmələ gəlməsi konsepsiyası
Naməlum planetlər konsepsiyası
Elmi əsərlərinin adları
Guliyev A.S., Nabiyev Sh.A. (2015). The features of sporadic hyperbolic meteors observed by television techniquesin the period of 2007-2009. Planetary and Space Science, voll.118,1 December. 107-111.
Guliyev A.S. (2010). Origin of short-perihelion comets. Baku, Publ. Comp. Elm, 151P.
Avroasiya Astronomiya Cəmiyyətinin üzvü
Pedaqoji fəaliyyəti
Qafqaz Universitetində professor
Bakı Dövlət Universitetində pedoqoji fəaliyyət
Digər fəaliyyəti Ensiklopediyanın redaksiya heyətinin üzvü
Təltif və mükafatları Asteroid ayyubguliev, 18749
Əsas iş yeri və ünvanı AMEA Şamaxı Astrofizika Rəsədxanası, AZ5626, Azərbaycan Respublikası, Şamaxı

Pergament
9 789954 098769

ƏYYUB QULİYEV (NİYAZLI)
PALID ƏFSANƏSİ



ƏYYUB QULİYEV
(NİYAZLI)

# PALID ƏFSANƏSİ



ƏYYUB QULİYEV
(NİYAZLI)

# PALID ƏFSANƏSİ

(Şeirlər və poema)

ƏYYUB QULİYEV (NİYAZLI)
**PALID ƏFSANƏSİ**

***(şeirlər və poema)***

*Redaktor:*
Əlabbas Bağırov

*Korrektor:*
Xatirə Rəhimova

"Pergament" N.E.
2024, 144 səh.
Tiraj: 300

© Əyyub Quliyev, 2024

MÜƏLLİFDƏN

Mən uşaqlıqdan poeziyanın vurğunu olmuşam, lakin bu sahədə yaradıcılıq cəhdlərim son 30 ili əhatə edir. Belə məş-ğuliyyət mənim üçün sanki bir hobbi olub, ona görə də çox az adam bundan xəbər tutub. Uzun tərəddüddən sonra kom-pü-terimin yaddaşında və şeir dəftərimin səhifələrində toplan-mış poetik nümunələri saf-çürük etdim. Tərəddüdün səbəbi "elm adamıyam – mən hara, şairlik hara" məntiqi olub. Son-ra isə onların bir hissəsini "Dustaq şeirlər" rubrikası altında sosial şəbəkələrdə yerləşdirməyə başladım. Bu, 2019-cu ildən sonrakı dövrlərə təsadüf etdi. "Dustaqlıqdan" xilas olan şeirlərlə tanış sözə bir köynək yaxın dostlar onları kitab ha-lında görmək arzularını gizlətmədilər. Onlar arasında müqtə-dir söz ustaları, tanınmış şair və yazıçılar da az deyildi. Müəyyən götür-qoydan sonra bu işə razılıq verməli oldum. Çünki bir yazıçı dostum demiş, onları üzə çıxarmamağın özü də günah sayıla bilər. Yaxınlaşan yubileyim də bu işə təkan oldu.

Şeirlərlə yanaşı, publisistik yazıları da kitaba salmağı planlaşdırırdım. Hesab edirdim ki, bu, ömrün 70 illik zirvə-sində özümün özümə hədiyyəm olar. Lakin sonradan məlum oldu ki, publisistik yazılar say və həcmcə şeirlərdən heç də az deyil. Bir sözlə, yekun kitab çox irihəcmli alına bilərdi. İndi internet dövründə yaşayırıq. İnsanlar irihəcmli çap material-larına o qədər də meyilli deyillər. Bu bir reallıqdır, heç kimi qınamaq olmaz. Ona görə də öncə şeirlərimi ayrıca kitab şəklində çap etdirməyi qərara aldım. Düşünürəm ki, publisistik yazılar, memuar xarakterli materiallar qalar sonraya. Əlavə bir ümumiləşdirici elmi monoqrafiya da nəzərdə tutulub. Təki sağlıq olsun...

Biz həmişə görmüşük ki, tarix boyu tanınmış şairlərin bir çoxu göy aləminə nüfuz edib, öz şeirlərində səma cisimlərinə və

hadisələrinə gen-bol yer ayırıb. Bu yolla onlar həm erudi-siya nümayiş etdiriblər, həm də poetik forma və obrazlarını daha da canlı ediblər. Bir qədər "böyüklük" və qeyri-təvazö-karlıq kimi çıxmasın, məndə isə əksinə alınır. Qısası, bu kitab professional astronomun və ya göy cisimləri üzrə mütəxəssi-sin şeir aləminə "müdaxilə" etməsi cəhdinə real bir misaldır. Tarix boyu astro-nomlar arasında şeir yazanlar az olmayıb. Mən də bu mənada istisna deyiləm. Sadəcə, redaktə prose-sində çalışdım ki, şeir-lərimdə mücərrəd və çətin başa düşülən astronomik analogiya-lar mümkün qədər az olsun. Nə qədər istəsəm də, bundan qaça bilmədim. Məsələn,

...Günəşə cəzbkən səyyarə Günəşlə görüşə bilməz,
O səyyarə tək cəzbdəyəm, Günəş göz iraqındadır, –

beytinin həmən başa düşüləcəyinə tam əmin deyiləm. Və yaxud "...əzəlin qaranlıq, sonun görünməz // aç mənə sir-rini, ey ulu dünya..." misrasında da ilk baxışda ateizm çaları axtarmaq olar. Halbuki bu, sadəcə müəllifin kosmoqonist dünyagörüşünün məhsuludur. Hər halda belə qaçılmaz fraq-ment və detalların mümkün qədər az olmasına çalışdım.

Kitabdakı şeirlər janrca müxtəlifdir. Onların əksəriyyəti beytlər şəklində yazılıb. Ola bilsin ki, bəzilərində əruzdakı məlum ölçülər tam gözlənilməyib. Belə şeirlərin qəzəl olub-olmaması sualı açıq qalır. Kitabda bir poema, bir neçə irihəcmli şeirlə yanaşı, müxtəlif tarixi şəxslərə müraciətlər, təx-mis və nəzirələr, gəraylı, qoşma və hətta divani janrında nümunələr də cəmləşib. Bir şeir ezop formasında yazılıb, kitabı da elə onun adı ilə adlandırmışam ("Palıd əfsanəsi"). Əksər şeirlər I Qarabağ müharibəsi zamanı itirilmiş torpaqların ağrı-acısının məhsuludur. Şükürlər olsun ki, qalibiyyəti görmək və bu mövzuda da şeirlər yazmaq bizim nəslə qismət oldu. Bununla yanaşı, müvafiq şeirlərin ilk ba-xışda gecikmiş çapı da zəruridir.

Ən azı, yetişməkdə olan və ya gələcək nəsillər bizim nəslin keçirdiyi stresləri duyub özləri üçün nəticə çıxararlar.

Dostlarımdan məsləhət edənlər oldu ki, tanınmış şairlərdən birinə ön söz üçün müraciət edək. Ancaq xeyli götür-qoydan sonra bu fikirdən daşındım. Düşünürəm ki, belə müraciət bir növ "xahiş edirəm məni bir az tərifləyəsən" kimi səslənəcək. Bu mənim əqidəmə ziddir. Əgər kitabda zəif şeirlər varsa, niyə onları kimsə tərifləməlidir? Saxta tərifin nə xeyri var? Bir sözlə, yaxşı olar ki, dəyərli oxucularım özü, kənar təsir olmadan qiymətlərini versinlər.

Kitabda ailə üzvlərim və yaxınlarımla bağlı şeirlər də yer alıb. Yaradıcılığıma maraq göstərən dostlara əlavə olaraq bildirim ki, bəzi şeirlərim müxtəlif səbəblərdən it-bata düşüb. Əgər tapmaq mümkün olsa, onları da oxuculara çatdırmaq yolları barədə düşünəcəyəm.

Qeyd etdiyim kimi, kitab mahiyyətcə hesabat xarakterli-dir. Elmi fəaliyyətimlə əlaqədar ömrümün bir hissəsi Ukray-nada, Kiyev şəhərində keçib. Orada astronom həmkarlarım-dan mənə və yaxınlarıma şeirlər həsr olunub, onların da bir neçəsini kitaba əlavə etdim.

Hələlik bu qədər. Necə deyərlər, oxuyan gözlər var olsun.

**Əyyub Quliyev (Niyazlı)**
*Fizika-riyaziyyat elmləri doktoru, AMEA-nın müxbir üzvü, professor, Beynəlxalq Astronomiya İttifaqının üzvü*

# QƏLƏBƏ
# ŞEİRLƏRİ

ŞUŞA İGİDLƏRİNƏ

Gözün aydın, şəhərim, axır ki, gəldi igidlər,
Nərə çəkib düşmənin bağrını dəldi igidlər.

Zülm altında Vətən, zülmətə qərq olmuşdu Şuşa,
O qaranlıq məkanda yanan məşəldi igidlər.

SƏRKƏRDƏ tədbirin tökdü, incələndi yerində
Bu tarixi onlar yazacaq – öncədən bildi igidlər.

Mənfur düşmən gözləməzdi bu əzmi, iradəni
Müdhiş bir tufan idi, kükrəyən seldi igidlər.

Çox gözlədik, fəqət ümidlər də əbəs deyilmiş,
Qəlblərdən bu həsrəti-nisgili sildi igidlər.

Dalğalandıqca burada üçrəngli bayrağımız,
Özləri də elə bayraqtək dikəldi igidlər...

LƏLƏ TƏPƏ

Qələbənin müjdəsisən, var ol səni, Lələ Təpə,
Bir son deyil uğurumuz, olacaqdır hələ, Təpə.

Əsarətdə neçə təpə həsrətində bu zəfərin,
Şad xəbərlər sıralansın, tez yayılsın elə, Təpə.

Ürəyində dərd gəzdirən neçə-neçə ana bəlkə
Təsəllini səndən alıb göz yaşını silə, Təpə.

Düşünürəm, acı səhvlər təkrarlanmaz bundan belə,
Qazanılmış bu uğuru biz verməzik yelə, Təpə.

Qoy yağıya bir dərs olsun, bəlkə bundan bir ayıla,
Biz Babəklər övladıyıq, bizdən olmaz kölə, Təpə.

Ayılmasa imkan vermə, yarımçıq iş fayda verməz,
Öz cəzasın özü çəksin, od-alovu ələ, Təpə.

Vahimələr alsın için, siçan kimi deşik gəzsin,
Qoy anlayıb öz günahın yağı dönsün külə, Təpə...

CƏBRAYIL YOLU

“Cəbrayıla yol çəkirdin, noldu, Paşinyan”,
Qarabağ sən girənmi koldu, Paşinyan.

Bizlərə hansı huş-başla verirdin ağıl?
Axı səviyyən sıfırdı, noldu, Paşinyan.

Şuşada yallı gedib xam xəyalda idin,
Reallıq o son imzandı, qoldu, Paşinyan.

İgid əsgərimiz nə günə qoydu səni,
Çaş qaldın hara sağ, hara soldu, Paşinyan.

...Peşiman olmaz qonşu ilə sülh yaradan
Yadda saxla, bu ən doğru yoldu, Paşinyan

ERMƏNİ*

Nahaq yerə lovğa-lovğa gəzirsən,
Bu oyunun yoxdur sonu, erməni.
Yalan ayaq tutar, sonda yeriməz.
Birdəfəlik anla bunu, erməni.

Bu tarixdir, keçənlərin qolu var,
O torpağın tikanı var, kolu var.
Qonşu ilə ünsiyyətin yolu var,
Gecikərsən, dəyiş tonu, erməni.

O zamanlar sən yaşardın uzaqda,
Nələr oldu sən gələndən qabaqda.
Bilirsənmi o gəzdiyin torpaqda
Tökülübdür kimin qanı, erməni?

Bir ləkədir tarixinə olanlar,
Unudulmaz odlu-qanlı talanlar.
Kimə gərək belə yağlı yalanlar,
Salmamısan sən Şuşanı, erməni.

Bir nəzər sal sən sağına-soluna,
Gəl soxulma özgələrin bağına.
Əl uzatma qonşunun bostanına,
Qoy kənara iddianı, erməni.

Ağaclar quruyub, bağçalar talan,
Xarabadır o tutduğun dağ-aran.
İnsanlıqdan, ədalətdən dəm vuran

---

* *Şeir 1990-cı illərin sonunda yazılıb.*

Viran qoymaz gülüstanı, erməni.

Yaxşılıq, yamanlıq heç ötməz hədər,
Soyqırım izləri sanma ki batar,
Nə qədər gec olsa, o gəlib çatar,
Ədalətin öz zamanı, erməni.

Bir kiçik millətsən, iddian böyük,
Buralar səninsə bəs bizlər nəyik.
Düşdüyün o yerdə bir eylə dirlik,
Neyləyirsən Naxçıvanı, erməni.

Bir tərəfdən vətən-vətən deyirsən,
Bir tərəfdən çözələnib gedirsən.
Yad diyarda dərbə-dirlik edirsən,
Torpaq mehri səndə hanı, erməni.

Bir zamanlar dost bildiyin o ağa,
Qızışdırdı verdi səni qabağa.
Nəticədə döşənərsən ayağa,
Dost-düşməni yaxşı tanı, erməni.

O ağa payını qoparar gedər,
Xudpəsənd üzünü bürüyər kədər.
Anarsan – qurbanlar verildi hədər,
Uduzarsan bu qovğanı, erməni…

# VƏTƏN AĞRILARI

AZƏRBAYCANA XİTAB

Ey ağsaçlı xəstə ana, uzaqlardan balan gəlmiş,
Aç gözünü bir nəzər et, səni yada salan gəlmiş.

Çox mərəz var bu dünyada, Vətən dərdi ən ağırı,
Ürəyimi qəm doğrayır, al yanağı solan gəlmiş.

Ürəyimin yanğısı çox, fəqət bunun faydası yox,
Mənəm sənin yanar oğlun, sənə fəda olan gəlmiş,

Gəldim gördüm nə gündəsən, qəddin sanki kaman olmuş,
Gözlərimin yaşı axdı, gülüstana talan gəlmiş.

Gülşəni tərk edib bülbül, şux sədası gəlmir daha,
Onun yerin indi tutub bir zəhərli ilan gəlmiş.

Bu naləni qəlbdə boğdum, səssiz fəryad nə çətinmiş,
İstəmədim qoy desinlər, öz saçını yolan gəlmiş.

Anaların anasısan, övladların nədən belə,
Qapış-qapış zamanıdır, bunun üçün bol an gəlmiş.

Hara baxdım alış-satış, biganəlik həddi aşmış,
Halallıqdan bir səda yox, əvəzində yalan gəlmiş.

Vətənimiz viranədir, gəlin onu bir düşünək,
Söylədilər, bir buna bax, xam xəyala dalan gəlmiş.

Hanı bizim mərd oğullar, dövr onları niyə sıxmış,
Yəhərimiz düşüb itmiş, əvəzində palan gəlmiş.

...Çərxi-fələk dövran edər, azğınlaşmış alçaq yağı,
Gücün verər ayaqlara – bu qisası alan gəlmiş.

Niyazlı da bayram edər üzün tutub o dərgaha,
Dua qılıb sonra deyər, iltifatı kalan gəlmiş...

ZİRVƏLƏR

Zülmət gecə ay sizlərdən boylansın,
Gülümsəsin gülər üzə, zirvələr.
Nazü-qəmzə ilə süzüb dünyanı,
Nur çiləsin yol-irizə, zirvələr.

Tikan olun bəd niyyətli gözlərə,
Saf sulardan bol göndərin düzlərə.
Əsən yelin salın səmtin bizlərə,
Saflıq versin qəlbimizə, zirvələr.

Saflanıb yuyunun dumanda-çəndə,
Duman tərk eləsin yellər əsəndə.
Qış ötüşüb bahar çağı gələndə,
Qalxsın güllər, çıxsın dizə, zirvələr.

Bir kimsə sizləri sevərmi məntək,
Baxdıqca duyğuya verirsiz dəstək.
Göynədir qəlbimi bir arzu-istək,
Qonaq olum hər birizə, zirvələr.

Dayanıb sizlərdən süzüm dünyanı,
Seyr edib yaşarsın gözüm dünyanı.
Qaranlıq yuxu tək yozum dünyanı,
Calaşdırım sözü sözə, zirvələr.

O məğrur görkəmdə duydum bir kədər,
Cəhd etdim anlayım, o getdi hədər.

Məni məhrəm bilib desəniz əgər,
Şərik ollam dərd-qəmizə, zirvələr.

O itkin torpaqlar, büllur bulaqlar,
Yadıma düşdükcə qəlbim sızıldar.
Viranə bağçalar, qurumuş bağlar,
Heç dəyirmi görün gözə, zirvələr?!

Baş götürüb cəlladların əlindən,
Fəqir millət iraq düşdü elindən.
Nəql eləyin məzlumların dilindən,
Yaradana bir ərizə, zirvələr.

Haqqınız var tənə ilə baxmağa,
Məyus qəlbi oda salıb yaxmağa.
İgidləri bada verdik axmağa,
Sinə gərək dərdə dözə, zirvələr.

Neyləyək ki insan üzü dönükdür,
Torpaq mehri kasadlayıb sönükdür.
Biz suçluyuq, günahımız böyükdür,
Borclu qaldıq bizlər sizə, zirvələr.

Keçər dövran, xoş məqamlar qayıdar,
Qoca tarix bu mürgüdən ayılar.
Yağmalanar, məğlub olar yağılar,
Biz çatarıq əhdimizə, zirvələr...

KƏDƏR

Yenə cəllad təki qarşımda durub,
Gözlərin gözümə dikmə, ey kədər.
Qoy könül şadlansın, açılsın ürək,
Dumantək qəlbimə çökmə, ey kədər.

Həyat kələ-kötür, hər addım sınaq,
İnsan gəldi-gedər, cahanda qonaq.
Barı sən insaf et, vaxtından qabaq,
Nikbinlik sarayın sökmə, ey kədər.

Düşəndə işlərin hərdən tərsinə,
Dözməlidir bu müşkülə hər sinə.
Gəl təlatüm salma şair qəlbinə,
Alnına qırışlar çəkmə, ey kədər...

ÜRƏK

Aram-aram nə sancırsan,
Nədir səni üzən, ürək?!
Qəsdin nədir söylə görüm,
Qəmi qəmə düzən ürək.

Sərilmirsən süfrə kimi,
Kəsir səni içindəki.
Çox həssassan sən, həm də ki,
Budur səni əzən, ürək.

Kaş ki, bir az daş olaydın,
Dolanda tez boşalaydın.
Şər çeşmindən baş alaydın,
Hər möhnətə dözən ürək.

Qurtararmı dünya qəmi,
Varmı onun bir məlhəmi.
Səni sıxan zəmanəmi,
Halal niyyət gəzən ürək.

Hara baxsan sağa, sola,
Gözə dəyir xudbin, lovğa.
Özü yaman, yaxşılığa
Dodaqların büzən, ürək.

Üstümüzdən yellər əsib,
Olub bizə zəhər nəsib.
Bəlkə belə fikirləşib
Bu yazını yazan, ürək?!

Gəl sıxılma bunca hədər,

Bu ağrılar keçər gedər.
Sərt yoxuşlar sona yetər,
Gələr güllü düzən, ürək...

VƏTƏN AĞRILARI

İftixarım, qürurum, başımın tacı,
Dünya mənə sənsiz, bilsən nə acı?
Kim rəva gördü sənə bunca taracı,
Nisgilin başdan aşır, varmı əlacı.
Çəkdi apardı yağı bollu xəracı.
Bağlar yandı, kül oldu,
Yas tutan bülbül oldu.
İşlər düşdü tilsimə,
Açılmaz müşkül oldu.

Dünənim, bu günüm, sabahım,
Dar gündə pənahım.
Sinəmdə qövl edən yanıqlı ahım,
Səni bu gündə gördüm, nəydi günahım.

Nə qədər səsləyim o ilahini,
(Tanrı gizlətmədə öz izahını)
Qorxuram görməyəm xoş sabahını,
Həsrətin çəkdiyim intibahını.

Səndən sarı bilsən nə narahatam mən,
Sənsiz sanasan əqrəbsiz bir saatam mən.
Bayağı nəğməyə nəqarətam mən,
Yadlara qürbətdə mükafatam mən.

Heyf ki, səndə də az rahatam mən,
Gördüyüm əməldən lalü-matam mən.

Çox fəxr elədik qəhrəmanıq biz,
Davada-dalaşda bir aslanıq biz.
Dar gündə dostlara bərk yananıq biz,
Qığılcımdan odlananıq biz.
Sən demə, sözdəcə pəhləvanıq biz,
“Sel gəlməmiş çırmananıq biz”.
...Şir qaçdı, tülkü qovdu,
Şir tülküyə döndü,
Tülkü şir oldu.

Xudbinlik, lovğalıq baş alıb gedir,
Əqidə dərya idi, boşalıb gedir.
Ziyalı, alimin çaş qalıb gedir,
Satqınlıq, məddahlıq kök salıb gedir.

Bilmirəm, qeyrəti harda itirdik,
Doğrunu qurutduq, yalan bitirdik.
Babiyə, dinsizə iman gətirdik,
İgidlər itirib, fərsiz yetirdik.
Hanı düşündüyüm mərdlər, igidlər?
Necə göynəməsin gorda şəhidlər?
Sıxır ürəyimi sönən ümidlər...

ƏSİR GÖZƏLƏ

Əsirlikdən gələn gözəl,
Gəl gizlətmə gözlərini.
Qamətini əymə, düzəl,
Çırp üzümə sözlərini.

Əsarətdən gələn bacım,
Nə çəkmisən anlayıram.
Xəzan vurub bəxt ağacın,
O halına mən yanıram.

Sinəndəki o yaralar
Qaysaqlanıb bitən deyil.
Qara yuxu o röyalar
Hafizədən itən deyil...

# MUĞAMLAR SİLSİLƏSİ

## MUĞAMLA DİALOQ

Dar günümün vəfadarı, yaxşı ki, varsan, muğam,
Dedi, diqqət et mənə, çox şeyi anarsan, muğam.

Hansı əsrin yadigarı, yarəb, yaradıb kimlər,
Dedi, sanma bu sualı gəl belə asan, muğam.

İlahi təranəsisən, göylərdənmi enmisən,
Dedi, gəl o yerlərə əl atma, ey insan, muğam.

Bir sənət məktəbisən, yaratmısan neçə ustad,
Dedi, bir gör kimlər oldu xak ilə yeksan, muğam.

O “Zabul-Segah”ın ki var titrədir varlığımı,
Dedi, hər xalı bir incidir əgər duysan, muğam.

Qubar edən könüllər qürbət eldən nəğmə dilər,
Dedi, “Dəşti”, “Rəhab”, “Humayun”, çoxdur saysan, muğam.

Gəlibdir güllü bahar, bəlkə onu vəsf edəsən,
Dedi, “Şur”um var, onu sənə etdim ehsan, muğam.

“Mahur”unda bir qürur var, o uludan uludur,
Dedi, belə ki sərrast dedin, sənə əhsən, muğam.

Varmı bir guşən ki, ahu-zarımı izhar edə,
Dedi, söylə bəs nədir “Bayatı-İsfahan”, muğam.

“Heyratı” çalaqmı dar məqamda davaya girsək,
Dedi, “Mənsuriyyə” səslə qələbə çalsan, muğam.

Bir aqil sözləri ilə xalqa nəsihət gərək,
Dedi, “Rast” ilə onun çarəsin taparsan, muğam.

“Şüştər”indən üşüdüm, doğrudanmı dünya fani,
Dedi, axirət var, lap bu dünyanı tutsan, muğam.

Bir ağacsan, yeddi qanad, hansı sənə ən əziz,
Dedi, belə mənasız sualdan bir usan, muğam.

Babalardan bir ərməğan, nəvələrə sözün nə,
Dedi, daim yaşaram naşıdan qorusan, muğam.

Zamanın zəhrindən bezar olmuş Niyazlı, – dedim,
Dedi, dözərsən əgər mənimlə yar olsan, muğam.

ŞUR

Dillən, qəmli qəlbə məlhəm, ey sevimli “Şur”um mənim,
Çək ürəkdən dərdi-səri, ey gövhərim, dürrüm mənim.

Sənsiz mənə yoxdur nicat, hər möhnəti uzaq eylə,
Ovundur bu yorğun qəlbi, ey zülmətdə nurum mənim.

Qəfəs təki sıxır dünya, apar məni nağıllara,
Bir yol ara ülviyyətə, ol səhrada Turum mənim.

Bülbülləri utandırdın, əskik olma yar bağından,
Səssiz sənə qulaq assın qoy Arazım, Kürüm mənim.

Ulu Xanın sevimlisi, muğamların sən şahısan,
Carçısısan məhəbbətin, həm mələyim, hurim mənim.

Dünya varkən munis olaq, tənha qoyma Niyazlını,
Zaman-zaman çağla müdam, hər bulaqdan durum mənim.

RAST

Sordum bu nə nəğmə ki, ahəngindən belə məstəm,
Dedi, dinlə məni, qafil, dillər əzbəri “Rast”am.

Bir məğrur nəğməyəm, həm təntənəyəm, dəyanətəm,
İncə hisləri ifadədə gör necə sərrastam.

Bətnimdən dünyaya gəlmiş neçə təsniflər, rənglər,
Ətirli gül-çiçəkdən düzəlmiş çələngəm, dəstəm.

Saflığın, mərdanəliyin çox təzahürü, növü var,
Hansı birini götürsən əgər, mən ondan üstəm.

Sinə gərdim əsrlərə, intizaram bircə şeydən,
Naşı ifa edəndə məni sanıram şikəstəm.

Müdrik təmkinlə səni səslərəm kamilliyə,
Hikmət dəryasından ucalmış bir əbədi büstəm.

Məni sevən insanda, Niyazlı, naqislik olmaz,
Xülasə, hər kim ki, haqqa müqabil, mən ona dostam.

ÇAHARGAH

Feyziyab eylə, ey ustad, qəlbi “Çahargah” ilə,
Çatsın başa müdhiş gecə bir xoş sabah ilə.

Gur sədası ilə onun calaşaq ülviyyətə,
Baş vursun göyə ruhumuz, görüşsün dərgah ilə.

Oxu “Bəstə-Nigarı”, dilbər bizə mehman olsun,
Yüz şövq ilə vüsalə yetək, qovuşaq ol mah ilə.

Qulaq asdıqca “Hisar”a üz tutaq əcdadlara,
Comərd ilə dostluq edək, döyüşək məddah ilə.

Dinləyib bu nəğməni bir aydınlıq dərsi duyaq,
“Müxalif” tövbəmiz olsun, üzülək günah ilə.

Zövq alaq o guşədən ki, adlanmış “Mənsuriyyə”,
Dinləyək ustad qəzəlin qəlbdə yüz izah ilə.

Diqqət eylə, Niyazlı, ondakı bitkinliyə sən,
Aparar bu zəvvar bizi, bağlayar intibah ilə.

SEGAH

Dərdləşir qəlbimlə yenə qəmli “Segah”ım mənim,
Dar gündə qəlbə munis sevgili dəstgahım mənim.

Onun təranəsi ram edir həm şahı, gədanı,
Fəth etmədə qəlbləri o hakim fəttahım mənim.

İstədim gizlədim ondan qəlbimin sirrini mən,
Məzəmmət etdi mənə hər sirrdən agahım mənim.

Qoy agah olsun aləm, həmdəmik əzəl binadan,
Qorxmuram bəd nəzərdən, qoy bilsin bədxahım mənim.

Oxşayır könlümü zənguləsi bəmdə, həm zildə,
O mənə mənəvi qida, ruhi-rifahım mənim.

Hər babam bir çiçək əkdi bu baği-gülüstanda,
Keçmişdən mənə ərməğan, yanıqlı ahım mənim.

Yoxkən vəslə güman üz tutdu Niyazlı “Segaha”,
Ondan özgə bu cahanda hanı pənahım mənim.

BAYATI–ŞİRAZ

Eylə ki xoş avaz ilə səslənir “Bayatı-Şiraz”,
Dinlə hikmət bulağın, dərk edəsən həyatı bir az.

Nüfuz et ondakı mənaya sən, nəql edir nələri,
Zaman-zaman yanan şamdır, eyləyir zülməti bəyaz.

Bir sənət incisidir, müdrik elimin naləsidir,
Sirayət etməz sənə, duyursansa sənəti dayaz.

Bu ləlin qədrini bil, düşməsin nadan əlinə,
Çətin olar yoxsa etmək bu qədim sərvəti xilas.

Heyran qaldı cahanda ona min maraq ilə kimlər,
Dünya durduqca yaşa, ey elimin şöhrəti avaz.

Gəl birgə fəryad edək, yandırsın o yanıqlı guşə,
Qəmi qəm ilə azalt, et qəlbdəki möhnəti taraz.

Dinlə “Bayatı-İsfahan”ı, göz yaşın selə dönsün,
Görəsən kim qoyub getdi bu məğrur fəryadı miras.

Yarandı bəlkə o guşə o dəm ki düşdü ayrılıq,
Qan ağladı göylər ondakı çəkdi sərhədi Araz.

Bu musiqiylə, Niyazlı, elimə gələr bir bahar,
Olsa da qəmli özü, əta edər qüdrəti o yaz.

HUMAYUN

Kövrəldir könlümüzü öz hüznüylə "Humayun",
Bənzəyir məsum gözələ hüsnüylə "Humayun".

Onun hər xalında gör nə kədərlər qalanıb,
Əks edir sanki qəmləri güzgüylə "Humayun".

Ana laylasıdır, oxunur beşik başından,
Köklənib ah çəkən anam köksüylə "Humayun".

Yüz iztirab ilə onu yaratmış babalar,
Tarixin sanki yaranıb hökmüylə "Humayun".

Səsləyir qəlbi ünsiyyətə təranəsilə,
Barışıq qılar, barışmaz küsküylə "Humayun".

Aparır keçmişlərə bu kövrək nəğmə bizi,
Həkk olub qəlbə xəyali büstüylə "Humayun".

Bir zaman bu fani dünyadan köçər Niyazlı,
Yeltək əsəydi məzarım üstüylə "Humayun".

# AİLƏ MÖVZUSUNDA

ÜZÜNÜ GÖRMƏDİYİM BABAMA

Yaş qırxı adladı, çox gec ayıldım,
İzindən bir soraq tapmadım, babam.
Nə əksin qalıbdır, nə də nişanən,
Yaddaşa yazılıb tək adın, babam.

Üç məzar bəlləndi, birində sənsən.
Bilsən nə bəxtəvər bir bəndəsən sən.
Uyuyub yatmısan vətənində sən,
Çox çətin bu rütbəyə mən çatım, babam.

Sağ ikən dünyada deyildi rəhmət,
Xeyirxah işlərin gətirdi hörmət.
Saleh əməlindən düşəndə söhbət
Fəxr edir adınla övladın, babam.

Sərsəm zəmanəyə sən sinə gərdin,
Atam xatirəsi – hey kövrələrdin.
Deyirdi, bilməzmiş nə idi dərdin,
Məlallı dövr etdi həyatın, babam…

ANA

Xəyalın yenə də gəldi qarşıma,
Baxma üzgün-üzgün heylə, ay ana.
Əllərin qoynunda, baxışın dalğın,
Nədəndir bu kədər, söylə, ay ana.

Saçların ağarıb, alnında qırış,
Məndən inciksənsə, sən allah barış.
Ömrümüz dönübdür olub bir yarış,
Dünya dəyişibdir böylə, ay ana.

Ruhumu titrədir o qəmli ahın,
Qanunu belədir ulu dərgahın,
Övladlar uzaqdır, nəvələr yaxın,
O tər çiçəkləri iylə, ay ana.

On övlad böyütdün, hərə bir yanda,
Etdiyin nəsihət ürəkdə, qanda.
Hayıf ki, qalmışam uzaq məkanda,
Taleyim bağlanıb göylə, ay ana.

Ömrün dağ qarı tək əridi, getdi
Getdikcə ətəkdə çiçəklər bitdi.
Haqqın qanunları arzuya ziddir-
Onlara baş əymə, neylə, ay ana.

Uşaqkən üstümdə sanki əsirdin,
Südünlə sərasər hissiyyat verdin.
Çəkəndə ürəyim ellərin dərdin
Qeyrilər yaşayır meylə, ay ana.

Neyləyim səninçün dar əlacımdan,
Bir səda ucaldı könül tacımdan.
Qurtara bilməzsən ana borcundan,
Nə qədər çalışsan səylə, ay ana.

Alnın möhürdədir, əqidən dönməz,
Uzatsın ömrünü gözə görünməz.
Analı ocaqda çıraqlar sönməz,
Zəncir halqasısan soyla, ay ana.

Bir təmkin, sakitlik vardır çöhrəndə,
Çalışdım onları götürüm mən də.
Yüksək olmalısan ədəb verəndə-
Böyüklük yaraşmır küylə, ay ana.

Sənmi mənə əziz, yoxsa vətənmi,
O da sənin kimi sinəsi qəmli.
Niyazlı arzusu, söylə, bitənmi,
Ellər bayram edə toyla, ay ana...

ATAM SALAH BURCƏLI OĞLUNUN ŞEİRİ*

Niyə məndən incimisən, küsmüsən,
Haraya gedirsən, tez qayıt, tapı.
Yaman yerdə ümidimi kəsmisən,
Haraya gedirsən, tez qayıt, tapı.

Gedib-gedib bir məkanda durarsan,
Məskənini Daylaxlıda qurarsan.
Sələsüzə qalxsan çox qızdırarsan,
Haraya gedirsən, tez qayıt, tapı.

Axıb getdin sel-sulara qarışdın,
Kədərləndim, qismətimlə barışdım.
Ac-susuzkən öz təbimlə yarışdım:
“Haraya gedirsən, tez qayıt, tapı”.

Tapı, Saleh küsübdür səndən,
Əlini yamanca üzübdür səndən.
Ruzi istəyərəm ruzi verəndən,
Haraya gedirsən, qayıtma, tapı…

* *Bu şeirin kədərli tarixcəsi var. 1940-cı illərdə atam daşan çayı keçərkən heybəsindəki tapı (arpa çörəyi) çaya düşür. Ac-susuz qalıb bu şeiri yazır.*

## ATAMIN MƏZARI ÖNÜNDƏ

Gəldim hüzuruna, mehriban ata,
Neyləyim bu səsim bir sənə çata.

Gəldim ki, önündə xəyala dalım,
Sıxan suallara bir cavab tapım.

Gəldim ki, yanında yol çəksin gözlər,
Yaddaşda səslənsin hikmətli sözlər.

Gəldim ki, yad edim ötən günləri,
Bir vaxtlar dünyada bitən gülləri.

Gəldim ki, qapılım özüm-özümə,
O nurlu xəyalın gəlsin gözümə.

Gəldim ki, dərk edim keçdiyin yolu,
O yolda sevinc az, əzablar dolu.

Gəldim ki, həyata eyləyim baxış:
Mahiyyət nədədir, bəs nədir naxış.

Gəldim ki, söyləyim dünya düzəlmir,
Yığılan kədərlər qəlbdən çözəlmir.

Gəldim ki, söyləyim, yorğunam yaman,
Rahatlıq verməyir ağrılı zaman.

Gəldim ki, biləsən yad edirik biz,
Adına layiqdir əməllərimiz.

Gəldim ki, söyləyim, olma nigaran,
Birliyi gözlərik, sıxsa da zaman.

**PALID ƏFSANƏSİ**

Gəldim ki, torpaqda rahat yat deyim,
Bir təhər dövr edər bu həyat deyim...
RAFİQ GÖVHƏR HƏŞİMOV
ƏYYUB DAYIMA

Ulduzlardan ömrünə solmaz çələng toxuyub,
Gözəllik aləminə çox vurulub, çox uyub,
Kainatı fəth edib, başdan-başa oxuyub,
Vüqarını əyməyib illərə Əyyub dayım.

Əzəl gündən olubdur Aya, Marsa marağı,
Sönməyibdi heç zaman Zırneldə od-ocağı.
Ekvator xəttinə də, çatıb səsi-sorağı,
Düşübdü zaman-zaman dillərə Əyyub dayım.

Keşməkeşli həyatda düşsə də çox get-gələ,
Həyatla yenə tutub, usanmadan əl-ələ.
Dünyaya göz açandan, vurğunudur bax belə,
Meşədəki, dağdakı, güllərə Əyyub dayım.

Nəslimin ağsaqqalı, tayfamıza güvəndir,
Nahaqq söz danışmayan, haqqı üzə deyəndir.
Təbiətin oğludur, təbiəti sevəndir,
Ürəyini veribdir çöllərə Əyyub dayım.

Nə yaxşı ki, olmusan dayı Rafiq Gövhərə,
Yaşatmısan baharı, yayı Rafiq Gövhərə,
Haqqı bəlkə yeyilib bu dünyada yüz kərə,
Yenə də sinə gərib sellərə Əyyub dayım.

*Tağı Sadiqin əlavəsi:*

*Bir ulduz verildi Eyyub adına,*

*Allah çatsın verənlərin dadına.*
*Keşməkeşli illəri sal yadına*
*Hardan hara gəlib gör sənin dayın!*

# TƏBİƏT ESGİZLƏRİ

BATABAT

*Bir ürək yanğısıyla ayrıldım sənlə,*
*Bu ayrılıq anında qəlbimi dinlə...*
*Səninlə bağlı gözəl ömrün illəri,*
*Çətin unudam səndə keçən günləri.*
*Yaddan çıxmaz axşamların, səhərin,*
*Təkrarlanmaz o füsunkar baharın.*

O zaman ki qış adamı bezdirə,
Güllü bahar sığışarmı təsvirə.
Pıçıldaşıb eyləyibən söz birə,
Tər çiçəklər ürəyimi əsdirə.
Yavaş-yavaş Günəş yeri qızdıra,
Fatma nənə qövsü-quzeh düzdürə.
Göylər qıla o büsata tamaşa,
Sevincimiz qəm-kədərlə savaşa.

Ürəkləri sevindirər ilk bahar,
O baharda ildırımlar gur çaxar.
Aram-aram buludlardan nur yağar –
Sanki səma sinəsində bir qəhər.
Gahdan da bir o buluddan gün çıxar,
Boylanıban sən dilbərə göz vurar.
Aşiq olub sənə hətta o Günəş,
Göz-qaş ilə naz etməyə sən öyrəş.

Yemişanlar çiçəkləyib açılar,
Çiçək ətri dörd bir yana saçılar.
Zümrüd göllər sanarsan ki, bacılar,
Məğrur dağın gül-çiçəkdən tacı var.
Bir də baxdın yay ortası yağdı qar.
Bəsdir, könül, gəl eylə sən az qubar –
Gözəllikdən gözün doymaz, əbəsdir.
Bu vurğunluq bir sönməyən həvəsdir.
Dillərin əzbəri bir şöhrətin var.
Qoynuna qonaqlar yayda can atar,
Dincəlib istidən rahatlıq tapar.
Düzdürər səmanda durnalar qatar,
Yarışıb atları cavanlar çapar.
Ruhu tumarlayar yaşıl yamaclar.
Zirvələrdə birləşibdir dörd fəsil,
O yerlərdə küləklərin sərt əsir.

Yamacların al qumaşı geyəndə,
Dağ küləyi mülayimcə əsəndə,
Bulaq üstə gözəllərin gələndə,
Saçlarına tər gülləri düzəndə,
Min naz ilə cığırlarda gəzəndə,
Ala gözlər gözəlliyi süzəndə,
Bil ki, ürək öz şövqü ilə ordadır,
Səyyah xəyal zirvədəki qardadır.

Özüm uzaq, xəyal orda dolaşı,
Bülbül səsi meşələrə yaraşı.
Dərin dərə uca dağla yanaşı,
Ağ sürülər göy yamaca daraşı.
Rəssam qardaş, tök ətəkdən bu daşı,
Mahir əllər bu təsvirə nə naşı.

**PALID ƏFSANƏSİ**

At fırçanı, “Əyriqara” çıxaq biz,
Ordan durub mənzərəyə baxaq biz.

Uca dağlar meşələrə həmdəmdi,
Zümrüd meşə yaraşıqlı sənəmdi.
“Salvartı”dan əsən yellər məlhəmdi,
“Qonaqgörməz” o göllərə məhrəmdi.
Bulaq ağlar, sinəndəki nə qəmdi,
Gəl darıxma, xuda yenə kərəmdi:
Keçər dövran, xoş günlərin qayıdar,
Övladların bu fələkdən kam alar.
“Zor bulağın” füsunkardı, gözəldi,
“Fərhad evi” tarixlərdən əzəldi.
Gəl darıxma, bəlkə dünya düzəldi,
Ürəklərdən xiffətimiz azaldı.
Neyləyək ki, çox cavanlar qocaldı,
Hesab edək fələk bizdən bac aldı.
Son illərin olayları bir sınaq,
O sınaq ki yaxşı-pisi biz qanaq.

...Zəmanənin hay-küyündən bezərdim,
Tənha-tənha meşələrdə gəzərdim.
Məğrur dağın kədərini sezərdim,
Teleskopla ulduzları süzərdim.
Hesablayıb ağ kağıza yazardım,
Sətirləri bir-birinə düzərdim.
Günlər idi, keçdi getdi ömürdən,
Kündə timsal kəsildilər xəmirdən.

Bir özgədir təravəti payızın,
Qızıl meşə çəkir dağın nə nazın.
İzi-tozu qalmayıbdır o yazın,

Bizlərə çox gördü bülbül avazın.
İstəsən tapmazsan aşığın sazın,
İyi gəlir yaxınlaşan bəyazın.
Bir imtahan qarşısında təbiət,
Qış sınaqdır, çəkməlisən əziyyət.

Yay vaxtını hamı bilir əvəzsiz,
Bəyaz qışdan bir çoxları xəbərsiz.
Uzun gecə oturardıq kədərsiz,
Lopa-lopa qar yağardı qədərsiz.
O kəsəndə hamar səthdə nələr iz,
Uca dağlar ağ xalatda qənirsiz.
Ağla mavi necə gözəl kəsişir,
Sərt küləklər kəsişmədə gəzişir.
Neçə dəfə boranlarda əsirdik,
Qar ki yağdı, yoldan ümid kəsirdik.
Lap dizəcən qar içində gəzirdik,
Soba söndü, səhər-səhər əsirdik.
İşıq keçdi, qaranlıqdan bezirdik,
İndi gələr ümidiylə dözürdük.
Bilirdik ki, dar zamanın az çəkir,
Aydınlıqlar bizə tərəf tələsir.

Səndən yan keçmədi bu səmum yeli,
Nə zamandır gediş-gəliş kəsili.
Göz yaşını, heç bilmirəm, kim sili,
Gəlib-gedən itiribdir fəsili.
Bəlkə fələk qarğıyıb bu nəsili:
Neçə ildir biz sayırıq nəhs ili.
Hər yoxuşun enişi var, gələcək,
Ümid ki var, yetişib bar verəcək.

**PALID ƏFSANƏSİ**

Neyləyək ki, bilmədilər qədrini,
Bayquş duymaz qızılgülün ətrini.
Yoxlayırlar bəlkə sənin səbrini.
Mən duymuşam müxənnətin məkrini,
Bilərəkdən qazıyırlar qəbrini.
Xuda versin xainlərin cəbrini –
İnsan oğlu gözəlliyə tüpürməz,
Uca tanrı bu pisliyi götürməz.

Yaramaz xainə kimlər yol açdı,
Binalar hərracda, alış-satışdı.
Başlar xarablaşdı, ağıllar çaşdı,
Ac baltalar meşələrə daraşdı.
Belə baxsan heç deməzsən savaşdı,
Bu əməllər biz millətə yaraşdı.
Hər millətə öz ordusu layiqdi,
Bu ordumuz sərhədlərdə "sayıqdı".
Bənzərsən İsveçrəyə, fəqət, bir fərqin,
Qılıblar o yerdə nadanlıq tərkin.
Orada bilirlər gözəllik qədrin,
Qalmayıbdır izi-tozu bu məkrin.
Bu mənada sənin dövrün nə gərgin,
Görüm düşsün nadanları didərgin.
Qara əllər gözəlliyə uzanır,
Xəyanətdən şər qüvvələr qazanır...

*1995*

YAYLAQ

Təbim yenə şahə qalxıb,
Qarışıbdır halım, yaylaq.
Yazdım onu ərz eyləyim,
Könül sazın çalım, yaylaq.

Dağlara bax, uca, qəlbi,
Hər birində cənnət cəlbi.
Ovsunla bu yorğun qəlbi,
Gücüm səndən alım, yaylaq.

Qalxsam dağın hamısına
Bəlkə kamım onda sına.
Kaş ki əcəl körpüsünə
Səndən düşə yolum, yaylaq.

Hakim oldun var-yoxuma,
Uzaqlardan çək yaxına.
Gələmməsəm gir yuxuma,
Qoyma darda qalım, yaylaq.

Sənsiz mənim nəhsdir işim,
Fəna olur bu gərdişim.
Dura-dura yetişmişim
Səpələnir kalım, yaylaq.

Varlığımı qubar alıb,
Bircə şeyə ümid qalıb –
Hərdən səni yada salıb

Bir xəyala dalım, yaylaq...

ŞAHDAĞI*

Nə zamandır can atırdım olum qonağın, Şahdağı,
Bu oylağa çəkdi məni sonsuz marağım, Şahdağı.

Nə layiqli ad vermişlər, adına layiq camalın
Havan da büllur kimidir, safdır bulağın, Şahdağı.

Heyran-heyran seyrə daldım, duruşuğun bir vüqardır,
Əzəmətdə bir dənəsən, yoxdur ortağın, Şahdağı.

Yaradanda sanki Tanrı özü baxıb məftun olmuş,
Təkrar-təkrar işə salmış sığal-darağın, Şahdağı.

Nə məğrurdur qarlı zirvən, lalələrin düzüm-düzüm,
Başında var ağ papağın, aldı yanağın, Şahdağı.

Yaşıl yamac, qoyun-quzu, başdan-başa tamaşadır,
Sürülərin əskilməsin, dolsun otlağın, Şahdağı.

Sürülərin qoy yayılsın, həyat böylə davam etsin,
Əskilməsin bərəkətin, balın-qaymağın, Şahdağı.

Hərdən yağış tufan olur, gələn bunu gərək bilsin,
Bu, dağların qaydasıdır, xoşdu dolmağın, Şahdağı.

Gərək duyub dərk edəsən təbiətlə ünsiyyəti,
O sərtliyə dəyanəti çatmaz qorxağın, Şahdağı.

* *Şeir Babadağ tərəfdən baxanda Şahdağın təəssüratından yazılıb.*

O tufanlar ötüb-keçər, Günəş yenə gülümsəyər,
Ətrafına qövsü-quzeh salar zolağın, Şahdağı.

Bir xalıdır çəmənlərin, ha baxırsan göz oxşayır,
Yarpız, yemlik, baldırğanın, quzuqulağın, Şahdağı.

***

Tarix boyu neçə-neçə bədniyyətli yadellilər
Göz dikibən bu torpağa atmış qarmağın, Şahdağı.

Ulu ustad yaxşı demiş, qoyma yaxın müxənnəti,
Nakəsləri uzaq eylə, kəssin ayağın, Şahdağı.

Azər elimin şah dağısan, tanrı səni çox görməsin,
Bu ünvanla qanadlansın, aşsın sorağın, Şahdağı.

Ol Vətənin keşiyində, yağıları qoyma yaxın,
Dalğalansın qoy zirvəndə məğrur bayrağım, Şahdağı.

Ülfət qursun bir-biriylə ətəyində yaşayanlar,
Qonşuluqda bir faydası olmaz nifaqın, Şahdağı.

Bəşər oğlu dil tapıban bu dünyada ömür sürər,
Ara sıra işlətməsə şeytan barmağın, Şahdağı...

***

Hikmətini tutmalıyıq tanrı vermiş bu nemətin,
Bu mənada məqbul olar varsa qınağın, Şahdağı.

Torpağımız, el-obamız bircə sülhün amacında,
O da olsa, cənnət olar hər bir bucağın, Şahdağı.

Əl çatmayan bu yerlərə üz tutarlar dəstə-dəstə,
Üzün gülər, şayanlıqdan artar rövnağın, Şahdağı.

Qayıtmağa yox həvəsim, qalır burda qəlbim mənim
Bir fənd işlət, saxla məni, olum dustağın, Şahdağı.

...Niyazlının arzusu var – ara-sıra gələ bilsin,
Qənşərində seyrə dalsın olsun müştağın, Şahdağı.

## PAYIZ

Deyəsən çox gözləməkdən usandı payız,
Asta-asta taxt-tacına dırmandı payız.

Tökülür pıçıltı ilə solmuş yarpaqlar,
Hiss etmədik necə gəldi dolandı payız.

Yaşayırkən dünyada bahar ilə yayı
Düşünmə ki, ola bilməz, yalandı payız.

Bu da bir fəsil ki onun qədrini dərk et,
Demə, yalnız yağış-çiskin, dumandı payız.

Nahaq deməyiblər, cücə sayılan çağlar,
Ömür yolu ölçüsündə mizandı payız.

(Yenə o uzaq xatirələr düşdü yadıma
Bir eşq yaşandı, vurulub talandı payız)

BULAQ

Oturmuşam, üzbəüzük, təkbətəkik,
Baxım sənə, aram-aram çağla, bulaq.
Dünya fani, ömür-cəfa, gəldi-gedər,
Gözlərim ol, bir doyunca ağla, bulaq.

Görüşünə gəzə-gəzə tək gəlirəm –
Xəbis söhbət səni yorur, mən bilirəm.
Saf nəğmənə qulaq asıb dincəlirəm,
Bir arzum var, bu saflığı saxla, bulaq.

Baxma yolçu imkansızdır, ya varlıdır,
O doğmadır, yadellidir, kənarlıdır.
Dinlə qəlbin, eşit görək nə hallıdır,
Təbib olub yaraların bağla, bulaq.

Məğrur dağın yaraşıqlı zinnətisən,
Dağla birgə bu diyarın cənnətisən.
Öz nəğmənlə azaldırsan möhnəti sən,
Qoşa qarı o füsunkar dağla, bulaq...

Bir sərsəm zəmanəyə olmuşam mehman,
Hey gəzib seyr edirəm, tapmıram səhman.
Nə ədalət dəbdədir, nə də ki peyman,
Arsız lazım, ömür sürə lağla, bulaq.

*Qüdrətdən səngərli, qalalı dağlar...*
*(Aşıq Ələsgər)*

D A Ğ L A R

Ey xəyal oylağı, ruha qarışan,
Sizdən ayrılalı halım pərişan.
Əgər birdən məni olsa soruşan,
Deyin ki, ürəyi bizdədi, dağlar.

Köndələn cığırdan karvan keçəndə,
Aşıq zənguləni zilə çəkəndə,
Koroğlu yağını kəsib biçəndə
Bilin ki qulağım sizdədi, dağlar.

Ömür bir karvandır, geri dönəmməz,
Ürəkdə həsrətin odu sönəmməz,
Şeytanın ayağı sizə dəyəmməz:
Yaxşılıq, yamanlıq üzdədi, dağlar.

Unutmaq çətindir cahu-cəlalı,
Bulağın sərindir, sinən səfalı,
O igid çobanın fikri-xəyalı
Lalələr toplayan qızdadı, dağlar.

Necə ləzzətlidir balın, qaymağın,
Kəkotu çayından yoxdur doymağım.
Sirrini soruşsan ayran almağın,
Nehrənin əlacı buzdadı, dağlar.

Payızda el-oba tərk edib gedər,
Qürurlu çöhrənə çökər bir kədər.
Sanma ki, dövranın keçəcək hədər
Ümid üzə gələn yazdadı, dağlar.

Sizə nələr dedi Dədə Ələsgər,
O sizsiz ilhama gələrdi məgər?
Qaydadır – halal söz qoşuldu əgər,
Sonra tərənnümü sazdadı, dağlar.

Xəyalım sizlərdə gəzər-dolaşar,
Bir anın içində zirvələr aşar.
Bulaqtək çağlayar, nəğmələr qoşar,
Hayıf ki, qərarım düzdədi, dağlar.

***

Bir doyunca çəmənləri gəzmədim,
Yamacları, zirvələri süzmədim.
Amma yenə ümidimi üzmədim,
Əfsus ki, arzular gözdədi, dağlar...

Bu Vətən qədrini bizlər bilmədik,
Gülünü dərdikcə tozun silmədik.
Sonralar doyunca deyib-gülmədik –
Ürəyim kababtək közdədi, dağlar.

Mərd oğul halalı harama qatmaz,
Kişi öz torpağın yağıya satmaz.

Qələmin qüdrəti yanğıya çatmaz –
Təskinlik yenə də sözdədi, dağlar.

Nə çoxmuş qeyrətsiz bizdə, ay aman,
Yaralı anadan hələ pay uman.
Vətən əsarətdə inləyən zaman
Kefləri elə bil yüzdədi, dağlar.

Yolları azmışıq, var günahımız,
Səs salıb sizlərə nalə-ahımız.
Bəlkə ümidimiz, son pənahımız
Babalar qoyduğu izdədi, dağlar.

Əyriyə düz dedik biz illər boyu,
Unutduq ötəni, keçmişi, soyu.
Xərclədik yaşılı, mavini, göyü,
İndi ümidimiz bozdadı, dağlar.

Məcbur olduq, bu oyuna qoşulduq,
Müxənnətə, xəyanətə tuş olduq.
Heç bilmədik sonra nədən çaş olduq,
Bu qumar taleyi tuzdadı, dağlar.

İnsafmı, böyləcə kəc keçə illər,
Açılıb göylərə gör neçə əllər.
O itkin yaylağa yaz köçən ellər
Aranda bürküdə, tozdadı, dağlar.

Tavanı dağıtdıq, qaldıq hasarda,
Sonra nələr çəkdik qasırğalarda.
Sizə həsr etdiyim bu misralar da
Niyazlı qəmindən sızqadı, dağlar...

## CEYRAN

Məlul-məlul nə baxırsan,
Ömrü-günü qara ceyran.
Dar dünyada bir yer varmı,
Baş alasan ora, ceyran.

Namərdlərin əməlindən,
Nadanların fənd-felindən,
Dilbilməzin sən əlindən,
Hey gəlirsən zara, ceyran

Şux qamətin bənzəri nə,
Dönüb dillər əzbərinə.
Bir arzum var dərd-sərinə
Tanrı qılsın çarə, ceyran.

Sənə qıyan nə namərddir,
Qazandığı min nifrətdir.
Naqislik var – bir xislətdir,
Baxmaz yoxa-vara, ceyran.

## PALID ƏFSANƏSİ

Gözəlliyin başa bəla,
Ömrün bütün ahu-nalə.
Kaş ki, elə dövran gələ,
Almayasan yara, ceyran.

BÜLBÜLƏ XİTAB

Bu nə fəryad, bu nə dilək,
Bir aram et, dayan, bülbül.
Qəmin bəlli, kədərimi
Mən də edim bəyan, bülbül.

Ömür keçir, səfası yox,
İllər ötür, vəfası yox.
Ürək yanır, dəvası yox,
Yoxsa edək üsyan, bülbül.

Ömür gödək, dilək çoxdur,
Heç deməzdim təbim toxdur.
Həyat qaynar, fəqət yoxdur
Qəlbimizi duyan, bülbül.

O səsinə vurulmuşam,
Şux nəğməndən məst olmuşam.
Bilsən necə yorulmuşam
Dinləməkdən hədyan, bülbül.

Hərə təkdir qərəzində,
“Mənəm” adlı mərəzində.
Güllər solur, əvəzində
Bitməkdədir büryan, bülbül.

Bu dünyanın tarazı var,
Razı olan, narazı var.
Hər payızın bir yazı var,
Nə alovlan, nə yan, bülbül.

Bu yay günü dedin nələr,

Susub uydu tər qönçələr.
Şirin yuxu gör gecələr,
Qoy çin olsun röyan, bülbül…

BABADAĞ – 1*

Bir sərin yay gecəsi üz tutduq sənə,
Baxıb camalından zövq alaq, Babadağ.

Al şəfəqlərlə bəhsə girib yarışaq,
O məşhur zirvəyə tez çataq, Babadağ.

Dəf edib bu həyatda çətin yolları,
Hikmət dünyasına yol tapaq, Babadağ.

Bir coşqun ümmansa da həyat, qoy olsun,
Təki biz sükanı düz tutaq, Babadağ.

Həyat yollarında zirvə deyib gedək,
Qısıq qayalara göz yumaq, Babadağ.

O dağdan seyrə dalaq doğma torpağı,
Yaddaşa silinməz iz yazaq, Babadağ.

Bu ziyarət başa çatsın, qayıdaq,
Cəlalına layiq söz qoşaq, Babadağ.

Bu səfər unudulmaz zaman keçsə də,
Ağıza sığışmaz dil-dodaq, Babadağ...

---

* *Babadağa həsr olunmuş silsilə şeirlər, müqəddəs sayılan həmin məkana bir neçə səfərimin nəticəsində yazılıb.*

BABADAĞ – 2

Dolanıb yenə gəldim olum qonağın, Babadağ.
Bu yükə bir də girək, xoşdur sınağın, Babadağ.

Üz tutub sən tərəfə insanlar dəstə-dəstə,
Yayılıb dörd bir yana artan sorağın, Babadağ.

Bu yollar haqqın yoludur naqisi çıxdaş edər,
Xainlər xoflu olar, qoymaz ayağın, Babadağ.

Dərdlinin ümid yerisən, öz dərdin olsa birdən,
Yaradan özü olsun darda dayağın, Babadağ.

Dörd bir yanda baş-başadır görünən sərt qayalar,
Möcüzəsən ilahidən, solmaz rövnağın, Babadağ.

Yaradıb valeh olub, düşünüb sanki dübarə,
Yaradan bir də çəkib sığal darağın, Babadağ.

Şahdağla üz-üzəsən, arada dərin dərələr,
Baxdıqca hey baxıram, sönmür marağım, Babadağ

Qəfildən dəydi gözə yamacda ceyran sürüsü,
Dolansın qoy sürülər dolsun oylağın, Babadağ.

Dönərəm bir də sənə varsa qismətdə əgər,
Niyazlı bir də gələr gəzər yaylağın, Babadağ.

BABADAĞ – 3

İllər keçdi, yenə gəldik görüşək,
Qarşında baş əyib dayanaq, Babadağ.
Zirvəndə oturaq, yol çəksin gözlər,
Xəyal dünyasına baş vuraq, Babadağ.

Kimlər gəldi, kimlər getdi bu yurddan,
Fəth elədi, əlin çəkdi bu yurddan,
Həvəs saldı, sonra qaçdı bu yurddan,
Hanı onlardan bir soraq, Babadağ...

Sandım son gəlişimdir – kədərləndim,
Baxdım dərin dərələrə – qəhərləndim.
Yollarda gənclər gördüm – zəfərləndim,
Gəl təsəllini bundan alaq, Babadağ.

Payız nişanəsi gözdə-qaşımda,
Kök salmada ikən kədər başımda.
Mənə inam verdin altmış yaşımda,
Məyus çağımda ol dayaq, Babadağ.

Qənşərində bir zirvəni seçmişik*,
Ölçüb-biçib dörd yanına keçmişik,
Son qərarı gözləməkdən bezmişik,
Nə olar, arzuya tez çataq, Babadağ.

*İyul, 2014*



* Böyük teleskop layihəsi üzrə zirvə seçmişdik

SƏHLAB

Bu bahar çağında günəşli gündə,
Gözlərim önündə durursan, səhlab.
İncə qamətinlə, şux duruşunla,
Zövqümə aşina olursan, səhlab.

Güllərin içində varmı tay sənə,
Verirsən bir özgə zinnət çəmənə.
Pərişan anımda həmdəmsən mənə,
Elə bil kədəri duyursan, səhlab.

Bir şair sevinci bürüyür məni,
Gəzib dolananda düzü-çəməni.
Əlim dinc durmayıb dərəndə səni,
Məsum gözlər kimi dolursan, səhlab.

Sellər-sular çoxalıban bir anda,
Gurultuyla qayalardan axanda.
Vahiməli ildırımlar çaxanda
Boynunu məlulca bурursan, səhlab.

O tufanlar əsib-coşub keçəndə,
Göydən Günəş şəfəqlərin saçanda,
Xoşbəxt körpə çəmən boyu qaçanda,
Bir zərif sevinclə gülürsən, səhlab.

Vaxt gələr şairlər verərlər qiymət,
Təbibə bəllidir səndəki hikmət.
Dərdlərin dərmanın çəkibən zəhmət,
Elə bil torpaqdan sorursan, səhlab.

Bənövşə həsəddir sənin iyinə,
Gödək olur ömrün, söylə, bəs niyə.
Bizi həsrət qoyub o gözəlliyə,
Qısa bir zamanda solursan, səhlab...

# USTADLARA XİTAB

NİZAMİSAYAĞI

Olmuşam mürgüdə mən, nazlı nigar gəlmiş imiş,
Heç gündüz yatmaz idim – nə viranə vərdiş imiş.

Görüb röyamı şirin qıymamış oyatmaq üçün
Dayanıb xeyli baxıb ümid yayın gərmiş imiş.

Ovçunun halına bax gələrkən ovlağa şikar,
Min qarğış fələyə – hicri rəva bilmiş imiş.

Yuxumda şaxtalı qış, bahar böyrümdə ikən,
Huşlanan mənmi idim, yoxsa yatan bəxtim imiş.

Kövrəldim körpə təki, görəndə böyrümdə gölü,
Qoymuş nişanə onu – öz bağından dərmiş imiş.

Duyanda burda olub yüyürdüm divanə kimi,
İzindən yox bir əsər, sanki səmum əsmiş imiş.

Sübhətək yox qərarım, ayrılıq ağrıtdı məni,
Son görüş getdi bada – nə mənfur gərdiş imiş

**PALID ƏFSANƏSİ**

Vəslə yox bir də ümid, bu taleyin qurğusunu,
Yoxsa fələyin sınağı – qubarı təftiş imiş...

ARASINDA (ŞƏHRİYARA NƏZİRƏ)

*...Ağ göyərçin, nə rəvadır ki, işıqlıq quşu səntək,*
*Yata bayquş yuvasında, qala xəffaş arasında...*

Sanki ülfət yaranar saf iki qardaş arasında –
Şeytan ki vurnuxmasa səninlə sirdaş arasında.

Bu ki bəlli həqiqətdir – olmasa bir evdə səhman,
İtəcək zər-ziba hökmən bir yığın nimdaş arasında.

Bir virus təki hərcayılıq salsa köklər dərinə,
Fərq itməsi labüd mərd ilə əyyaş arasında.

Qarşında var “zəngin” süfrə, gözün sağda-solda isə,
Kasıb dostla yeyəsən pendiri lavaş arasında.

Rəhmət sənə ustad, nə qədər ki bu dünya duracaq
Sözlərin bayraq olacaq söz qanan çağdaş arasında...

XƏQANİYƏ NƏZİRƏ

*“Biz qəmə öyrənmişik ey dost, göndər qəm bizə,*
*Qüssədən bir töhfən olsa, yolla sən hər dəm bizə”.*

Bu nə dövrandır gördük, dürüstlük qeybə çəkilmiş,
Edəndə düz yola dəvət deyirlər sərsəm bizə.

İstəsən ki uşağa su, böyüyə yol verəsən,
“Zəifsən” deyib görənlər tən edər möhkəm bizə.

Nə qədər zülm edəsən o qədər “qədrin” bilinər,
Qəddarlıq bir bayraq olub hey verir “görkəm” bizə.

Uymuşuq dünya malına qaçhaqaçdır, vurhavur,
Biryolluq ümdə işimiz görünmür mübhəm bizə.

Tapdaq altında Vətən, torpaq əsirlikdə ikən,
Boş, mənasız vurnuxmalar olubdur gündəm bizə.

Xeyirlə şər bilinməz, dəyərlər düşüb baş-ayaq,
Şeytan ilə qol-boyunuq, sanırıq məhrəm bizə.

Üz tutub haqqa tərəf saflığa getməsək biz
Çox çətin ki, yaradan olacaq həmdəm bizə…

NƏBATİYƏ NƏZİRƏ

*Sən nə bəslərsən bu tərlanı, Nəbati, ruzü şəb?*
*Mən bu dağı çox dolandım, bir şikarı yoxdu, yox!*

Nə səbəbdir bilməm, qəlbin bir baharı yoxdu, yox!
Tənhalıq sıxmada ruhu, şux qəmxarı yoxdu, yox!

Bu nə zərdir atılır, nə qədər fırlansa belə,
Şeş-beşi dəysin başına, heç çaharı yoxdu, yox!

Xoş günün qədrini bil deyərdi aqil dədələr,
İndi hey təlaşda ürək, səbr-qərarı yoxdu, yox!

Yarış qurub yaşla təlaş – hansı çox artım edər,
Ömür keçir, zaman ötür, xoş axarı yoxdu, yox!

Payız fəsli öz işində, durnalar gözə dəyməz,
Özgə quşlar pərakəndə, səf qatarı yoxdu, yox!

Can atıb kəhkəşan sirrinə eylədim belə kəşf:
Qəm-qüssənin də onun tək, bir hasarı yoxdu, yox!

Nə qədər çalışsan da, Niyazlı, faydası azmış,
Dövranın ki döndü üzü, xoş rəftarı yoxdu, yox!

HAFİZƏ NƏZİRƏ

*Yusifi hər gün görər bağrında Kənan, qəm yemə.*
*Hüzn evi ən son, olar tam bir gülüstan, qəm yemə.*

Bəxt ki döndü səndən, ovqat oldu yaman, qəm yemə.
Aydın günlər olar qismət, keçər duman, qəm yemə.

Dərd-sərə oldun düçar, demə ondan yox qurtuluş,
Düzər-qoşar, edər çarə ona zaman, qəm yemə.

Bir kimsə xalidirmi qəfil fələk zərbəsindən,
Çox dərdi yola vermiş vaxt adlı dərman, qəm yemə.

Dar günün barəsində nə gözəl demiş babalar,
Çox da olmaz ömrü onun-eylə güman, qəm yemə.

Həyat bir yol ki enişi, yoxuşu, döngəsi var,
Maraq da qalmaz hər şeydə olsa səhman, qəm yemə.

Getdiyin yol səhra isə hərarəti dözülməz,
Tezliklə rasta çıxar bir yaşıl orman, qəm yemə.

Sanma cahanda Tanrını kəm-kəsirə biganə,
Onun hökmüylə çıxar tam fərqli fərman, qəm yemə.

Məcnun kimi yansan da oda Leyli fəraqında,
Şükr et röyada hərdən olursa mehman, qəm yemə.

Zalım fələyin fitvası ilə cahanda bilsən,
Puç olubdur neçə-neçə əhdi-peyman, qəm yemə.

Əgər ismindir Əyyub, mənası dözüm, dəyanət,
Eyləyər dəstək sənə Qadiri-Rəhman, qəm yemə.

ŞAH İSMAYIL XƏTAİYƏ

Qaldır başını baba, üfüqlər duman görünür,
Zənd ilə bax bu elə, halımız yaman görünür.

Nə müdhiş kəmənd imiş, bağlanıbdır əl-qolumuz,
Zülmümüz ərşə çıxıb, göz yaşı ümman görünür.

Göz gəzdir diyarına, xərabələr məskənidir,
Dərdimiz başdan aşır, qəddimiz kaman görünür.

At mindiyin oylağa bax, yağılar tüğyan edir,
Səbr yox buna dözməyə, çox acı zaman görünür.

Tanrıya duamız çatmır, ya bizdən üz döndərib,
Açılıb göyə əllər, yox bizə aman görünür.

Qalmamış dostlarda vəfa, görünmür soydaşımız,
Kömək yox heç tərəfdən, hər yerdən uman görünür.

Əsdi səmum yeli, viranədir güllü bahar,
Gülləri vurub xəzan, çiçəklər saman görünür.

Qəflətə daldıq, baba, öz işini gördü yağı,
Qəlblərə bir nəzər et, gör nə peşiman görünür...

CAVAD HEYƏTƏ

Çoxdandır qərarım yox gördüyüm göz yaşlarından,
Ah çəkib kövrələn bir ahılın ağ saçlarından.

Göz yaşının hər damlası car çəkirdi dörd yana,
Bu pirvüqar dağın köksündəki təlaşlarından.

Kövrələn Təbib idi, kədərin səbəbi məlum,
Bəd xəbər almışdı bu taydakı soydaşlarından.

Keçdi yağı cənginə Kəlbəcər adında səngər,
Sanki bu itki ilə məhrum oldu ağac barından.

İraq düşdük şiş qayasından, şux yaylaqlarından,
Buz bulağından, bağça-bağından, yağış qarından.

...Qəm çəkmə, Təbibim, zamanında gələr qisasçı,
Hesab tələb edər yağıdan, həm ruzigarından.

Qisas məşəlləri qoy həlalik qəlblərdə yansın,
Gün gələr şölə çəkər Dəlidağdan, Qoşqarımdan...

USTAD ŞƏHRİYARA

Nəzminin sehrindən tilsimə düşdüm,
Elə bil əl-qolum bağlandı, Ustad.
Oxudum, oxudum, təkrar oxudum,
Qəm-qüssə üst-üstə qalandı, Ustad.

Sən Məcnunu oldun kor olmuş əsrin,
Sanki dustağıydın bir müdhiş qəsrin.
O göz yaşı ilə yaranmış vəsfin,
Nə itən, nə də ki solandı, Ustad.

Həftələr çevrildi illərə döndü,
Nisgil qanadlandı, yellərə döndü.
Göz yaşın kəsilməz sellərə döndü,
Arazın suları bulandı, Ustad.

Üzləşdin dünyanın yüz xislətiylə,
Barışdın talenin az qismətiylə.
Dillərin əzbəri öz həsrətiylə,
Gözlərin dünyaya qapandı, Ustad.

...Zülmkar əjdahanın dizi basıldı,
Zülmət dünyamıza işıq saçıldı.
Bizdən o yerlərə yollar açıldı,
Heyf ki olaylar yubandı, Ustad...

Bir müddət yaşadıq bunca xoş anlar,
Dedik belə gedər biz qonuşanlar.
Yağı duyuq düşdü, töküldü qanlar,
Bir Şuşa həsrəti başlandı, Ustad.

Arazdan Güneyə edərdik maraq,
İndi Quzey səmtdən yoxdur bir soraq.
Həsrətin çəkdiyin gözəl Qarabağ,
İgidlər qanıyla boyandı, Ustad.

...Bu bəd zəmanəyə dözək bir təhər,
Üzən yoxuş gedər, bir düzən gələr.
Günəş şəfəqiylə dönər xoş səhər,
Əfsus ki nəhs dövran uzandı, Ustad...

FÜZULİ DİVANI

Hərdən ki qalıram təkbətək bu kitab ilə,
Zənn edirəm üzbəüzəm nəzmdə mehrab ilə.

Əzəndə qəlbi kədər açıram varaq-varaq,
Könül təsəlli tapır yüz cürə cavab ilə.

Oxşatsan şer aləmini çəmənzarə əgər,
Bu nəzmin bənzəri var ətirli səhlab ilə.

Onu tam dərk etməyə, əfsus, gücsüzdür idrak,
Yaşınmış sanki gözəl bir incə niqab ilə.

Qarşımda bir nakam aşiq, hicranın hökmüylə
Nə incilər yaratmış qatlaşıb əzab ilə.

Cümlə aşiqlərin diləmiş dərdinə çarə,
Əl açıb göyə ustad hər məsum xitab ilə.

Söyləmiş "rəhmət sənə" nəzm soltanına kimlər,
Olmuş cənnətə məskun ruhu bu hesab ilə…

NƏSİRƏDDİN TUSİYƏ

Gecə yarı, səma aydın, sən ustadı yada saldım,
Yuxusuzluq yoxa çıxdı, qığılcımdan bir od aldım.

Varaqlayıb kitabını baxışını sanki tutdum,
Elə bildim qarşımdasan, qürrələndim, həm ucaldım.

Kədər sezdim bilməm neyçün o nurani simanda mən,
O mənalı baxışların gözlərimə dəydi dalğın.

Soruşdum ki, bu dünyanı necə gördün, dedin, sorma,
Cavanlığım hədər getdi, gec oyandı qara baxtım.

Çox maneələr dəf elədim, elmlərə sahib oldum,
Ömrüm keçdi axtarışda, xaruqələr mən yaratdım.

Sual etdin: “İncilərim qıfıl altda yatıb qalıb,
Söylə görüm bəs onlara biganədir niyə xalqım?

Marağada yaratdığım o səltənət söylə hanı?”
Suallara bir cavab yox, çaşqın qalıb lap daraldım.

***

O cah-cəlal dağılsa da, əsərlərin qalır, ustad,
Hər biri bir şam kimi qaranlıqda qılır yardım.

Bax bir ömrün bəhrəsinə, bəs edərdi neçə ömrə,
Yaratdığın inciləri sadalayıb fikrə daldım.

Yaratdığın mənbələrdən bəhrələndi neçə düha,
Dahilərə örnək oldun, hünərinə mən mat qaldım.

O təlim ki qoyub getdin, bir kamillik dünyasıdır,
Baş vurduqca səmasında pərvazlanıb qanad çaldım.

Məqsəd qoydun – yurdumuzda təlim olsun, dərs oxunsun,
O müqəddəs amalına sən can atdın addım-addım.

Bir zirvəsən, kölgəsində dayanmışıq zaman-zaman,
Bu zirvəyə sığınaraq çox suala cavab tapdım...

BİR PAYIZ AXŞAMI

*Qaldı canda gizli-gizli dərdimiz,*
*Bircə kəlmə danışmadıq, ayrıldıq.*
***M.P. Vaqif***

Bir payız axşamı gəldik üz-üzə,
Baxışlar rastlaşdı, titrədi qəlblər.
Saçlara dən düşüb, gözlər qayğılı,
Hanı mən gördüyüm işvəli dilbər.

Bir anlıq keçmişə apardı xəyal,
Ürək sızıldadı, dəyişdi əhval.
Ahımla sinədən qopdu bir sual,
Hanı ötüb keçən sevdalı dəmlər.

Hanı mən sevdiyim o qələm qaşlar,
Ürəyə od salan süzgün baxışlar.
Hanı nazü-qəmzə, küsgü-savaşlar,
Sözlər ki olmuşdu dilimdə əzbər...

...Gəldi xəyalıma o güllü bahar,
Varlığı bürüdü bir həzin qubar.
Ey fələk, hökmündə heç insafmı var,
Varsa, o sevdalı dəmləri qaytar.
Ürək onlar üçün daim sızıldar.
Qaytar o qəmləri, xoş əzabları,
Fərəhli günləri, iztirabları.
Qaytar o ümidi, o amalı sən,
Ulduzlu səmanı, xoş sabahı sən.
Qaytar o ümidi, o nikbinliyi,
Xəyallar oylağı o ənginliyi.
Qaytar o yanğını, o hərarəti,

Zülfə vurğunluğu, xoş əsarəti.
Qaytar o günəşi, mavi səmanı,
O ülvi arzunu, sonsuz inamı...

M.Ə.SABİRƏ NƏZİRƏ

*İstəsən könlüm kimi zülfün pərişan olmasın,*
*Ol qədər cövr et mənə ah etmək imkan olmasın!*

Mümkünmü ki, könlüm hicrində pərişan olmasın,
Düşsün fəraq oduna aşiq, alışan olmasın.

Kölgədə qoymuş cəm gözəlləri o gül camalın,
Yoxsa istərsən o camalla yarışan olmasın.

Məni tərk eyləmisən, kəsilib səbrü-qərarım,
Nə rəva ki, pərişan halım soruşan olmasın.

Yetər bu küsgülər, gülüm, barışıq məqamıdır,
İnsafmı ki, incisin aşiq, barışan olmasın.

Sən mənim bəxtimə ulduz, həyatın cövhərisən,
Kim istər ki, ulduzu sönsün, sayrışan olmasın…

MƏMMƏD ARAZA

Dərdi-qəmlə, sədaqətlə qulluq etdin Vətənə,
Alovlandın el yolunda, bəs el verdi sənə nə?

Titrətmirsə daş ürəyi şətirlərin, qəm yemə,
Hər addımda rast gəlinməz zər qədrini bilənə.

Əsrlərdi gəlib gedən, dəyişməmiş biganəlik,
“Məndən ötdü” ifadəsi indi olmuş “mənə nə”.

Əvvəllər də dərd var idi, indi olmuş birə on,
Varmı güman nə zamansa yaxşı pisdən ələnə.

Dörd bir yanda əyintidir, doğru-düzlük itib batıb,
Xudpəsəndlik, əllaməlik indi olmuş ənənə.

Vətən oğlu dərd-sərlə səpələnib bu dünyaya,
Nə rəva ki mərd igidlər yad qapıda dilənə,

Məsəldir, yük əyməsə daş qürbətə düşə bilməz,
Kim edəcək tənə görən bəs bu yükü əyənə.

Yaxşı ki, bu millətin övladı var sənin təki,
Belə ki güllər yetirir, min alqışlar çəmənə.

Şairim, arxayın ol, halal sözün itib batmaz,
Dövr dolanar, örnək olar bizdən sonra gələnə…

*1996*

HÜSEYN CAVİDƏ

Xarüqələr yaratdın, ruh gətirdin sənətə,
Şam kimi yandı ömrün işıq saçıb zülmətə.

Qırılmaz iradənlə dillərdə əzbər oldun,
Yenilməz əqidənlə yol göstərdin millətə.

Əsərlər ki yaratdın, hər biri bir incidir,
Oxuduqca onları heyran qaldım hikmətə.

Tüğyan etdi irtica, sənsə baxdın sabaha,
Türk elini səslədin əsərinlə vəhdətə.

Sadiq qaldın amala, qəsd etmədin vicdana,
Məddahlığı rədd etdin, cəllad atdı qürbətə.

Soyuq Sibir elində başın nələr çəkmədi?..
Haqsızlığa tuş oldun, düşdün o cür zillətə.

Ölməzliyə yol açdın, köçüb getdin dünyadan,
Vətən səni unutmaz, layiqsən min rəhmətə.

Bir ad alıb adından fəxr eylədi səyyarə*,
Baxışdılar ulduzlar, mətəl qalıb hörmətə.



* "Cavid" kiçik planetinə işarədir

MİŞKİNAZ CAVİDƏ*

Əsdi qara yellər, xoş bahar ötdü,
Qızılgül saraldı, qanqallar bitdi.
O məsud günlərin Cavidlə getdi,
Xoş ömür sürmədin, Mişkinaz bibi.

Keşməkeş dünyada bir gün görmədin –
Turan qayğıların, Ərtoğrol dərdin...
Gəlin gətirmədin, qız köçürmədin,
Nəvələr görmədin, Mişkinaz bibi...



* *Araşdırmalarım zamanı məlum oldu ki, Mişkinaz Cavid bizim qohum (babam Qəhrəmanın bibisi qızı) imiş.*

TURAN CAVİDİN ÖLÜMÜNƏ

Bu bəd xəbər qəfil gəldi,
Kədərləndim, təsirləndim.
Neçə haldan-hala düşdüm,
Turan xanım...
Neçə-neçə görüşümüz,
Ülfətimiz yada düşdü.
Hər novruzda çay süfrəsi,
Söhbətimiz yada düşdü.
Bu dünyada yaşayarkən
Bu dünyadan deyildin sən.
Tanımayan deməzdi ki,
Bu dünyadan gileylisən.
Bəlkə elə ona görə
Az tanındın,
Sevildin sən.
Çöhrən ciddi, kamal dərin,
Dil əzbəri mətinliyin...
Dilin sərrast, nitqin rəvan
Böyük TURAN xanımıydın,
Turan xanım...
Sanırdım ki, bu dünyada
İkinci bir anam vardır,
Anam kimi ürəyimi
İkinci bir duyan vardır.
...Nə əfsus ki, hər bir şeyin
Sonu gəlir bu dünyada,
Zalım fələk rişxənd ilə
Biçib kəsir bu dünyada.
Fəqət sən tək insanlardan
Nələr qalır bu dünyada

Sən tək insan köçən yerdə
Mələr qalır bu dünya da...

*Sentyabr, 2004.*

AĞABƏYİM AĞAYA NƏZİRƏ

*Əfsus ki yarım gecə gəldi gecə getdi,*
*Bilmədim ömrüm necə gəldi, necə getdi*

Eylərkən göylərə ülfət bir xoşluq gördüm
Yerdəsə sağ-sola baxıb tam boşluq gördüm,
İstədim köhlən səyirdəm, sərt daşlıq gördüm,
Bircə bunu bildim - çox amac heçə getdi,
Beləcə yarım gecə gəldi, gecə getdi,
Bilmədim ömrüm necə gəldi, necə getdi.

Duymadı ruhumu nə qohumum, nə yadım,
Daim qəlbimdə səsləndi qəmli bayatım,
Bir səyyarə sorağında keçdi həyatım,
Nə qədər atdımsa kəmənd hey kəcə getdi.
Beləcə yarım gecə gəldi, gecə getdi,
Bilmədim ömrüm necə gəldi, necə getdi.

Bir şam sorağında dolandım pərvanətək,
Həyat sıxdı qəlbi darısqal qəmxanətək,
Narahat yollarda vurnuxdum divanətək.
Ömrün çox illəri böyləcə köçə getdi,
Beləcə yarım gecə gəldi, gecə getdi,
Bilmədim ömrüm necə gəldi, necə getdi

Vaxt gələr dünyadan köçəndə şair,
Halal sözü dillərdə gəzəndə şair,
Hardasa, haçansa yada düşəndə şair,

Deyin Niyazlı uca gəldi, uca getdi.
Beləcə yarı gecə gəldi, gecə getdi.
Bilmədi ömrü necə gəldi, necə getdi.

AYRILIQ (ŞƏHRİYARA NƏZİRƏ)

Külüngü qapdı fələk, rişxənd ilə qazdı məzarı,
Gömüldü xakə murad, itirdim o nazlı nigarı.

Bir vurğun aşiq idim, gəzərdi göylərdə xəyalım,
Bu nə qəfil zərbə idi, qartalın sındı vüqarı.

Zəmanə sıxmaqda məni, guya bu azmış ki hələ,
Verdilər bir zəhrli şərbət, aşiqin oldu naharı.

İçimdə nə vulkan var imiş, əvvəllər bilməz idim,
Yandırdı köksümə içim, püskürüb çıxdı dişarı.

Axdı göz yaşı ürəyə, tələsdi təskinlik üçün,
Nə biləydi qızmar imiş, çatanda qalxdı buxarı.

Fələklə qumar oynamaq olmaz, dedilər, onu bil,
Uduzub bir hala düşdüm, çaşırtdım yeklə çəharı.

Bəxtəvər günlər var idi, qəfildən qopdu küləklər,
Atdı tufanlar tavanı, binanın qaldı hasarı.

Yetər ah-fəğan etdiyin, vaysınma bunla, Niyazlı,

**PALID ƏFSANƏSİ**

Məhəbbət əzabsız olmaz, bu yolun yoxdu hamarı.

GƏLİM (ŞƏHRİYARA NƏZİRƏ)

*“İzin ver, toy gecəsi mən də sənə dayə gəlim,*
*Əl qatanda sənə məşşatə, təmaşayə gəlim” .*

Şölələnib Şəms təki bərq vuranda səmada sən,
Paralanmış ay kimi ardınca səmaya gəlim.

Sanma ki, diləyib çox şey istər divanə könlüm,
Qubarımı izhar etməyə təmənnaya gəlim.

Yas tutub muradıma, acıyım tənhalığıma,
Çevrilib göz yaşına sel kimi dəryaya gəlim.

Qurtardı sevdalı dəmlər, arzular daşa dəydi,
Bir daha üzüm gülsə, əlli cür bəlaya gəlim...

Tutsun dünyanı fəryadım, inləyim ah-zar ilə,
Can verən bülbül təki son dəfə səfaya gəlim.

Niyazlı xəstəhal aşiq, sənsə biganə təbib,
Diləyib bir də şəfa dərd üçün dəvaya gəlim.

BORÇALI AŞIĞINA*

Çaldın o havanı gərgin çağımda,
Titrədi qəlbimdə tellər oynadı.
Sanki bahar gəldi qarlı dağlara,
Təbiət oyandı, sellər oynadı.

Zövqümü oynayan məğrur nəğmədən,
Bir kədər duyulur, söylə, bəs nədən.
Əsdi sərin yellər məğrur zirvədən,
Səhər nəsimindən güllər oynadı.

O sözlər səslənmiş kimin dilində,
Gör nəyə çevrildik dövrün əlində –
Həsrətin çəkdiyim ustad elində
Bayquşlar oxudu, yellər oynadı.

Fitnələr üstündə baş verdi nələr,
Ana övladından aldı zərbələr.
Eldə tüğyan etdi keçəl həmzələr,
Düzlük tapdalandı, fellər oynadı.

Qeyrətdi tapdanan, mənlikdi itən,
Bir ovuc naqisdi murada yetən.
Torpaqlar satıldı, basıldı Vətən
Öz mənfur rolunu lələr oynadı.



---

* *Aşıq Hüseyn Saraclıya həsr olunub.*

İgidlər vuruldu, çoxaldı ahlar,
De bizi gözləyir hansı sabahlar?
Satqınlar gizləndi, gəldi məddahlar,
Çəpiklər vuruldu, əllər oynadı.

Çal aşıq, bir daha qəlbimi göynət,
Düz yolu nadana, cahilə öyrət.
Bəlkə də bu yolla qurtardı möhnət,
O şirin çalğınla ellər oynadı.

NÖVRƏS İMANA

Aşıqlığın, o sənətin
Sərvətisən, Növrəs İman.
Doğulduğun gur ocağın
Qüdrətisən, Növrəs İman.

Saf ocaqda yaranmışdın,
Əqidəndə dayanmışdın.
Sonra eldə qazanmışdın
Hörməti sən, Növrəs İman

Sözlər tutdun dədələrdən,
Sədan gəldi bölgələrdən.
Əxz elədin Ələsgərdən
Hikməti sən, Növrəs İman.

Sinədəftər – dəstələdin,
Təcnisləri cərgələdin.
Müxəmməslə vəsf elədin
Ülfəti sən, Növrəs İman.

Zara gəldin məlalətdən,
Nadanlıqdan, cəhalətdən*[*].
Üstün tutdun xəcalətdən,
Qürbəti sən, Növrəs İman...

[*] Ustadın qarşılaşdığı ailə-məişət dramına işarədir.

XANƏNDƏ ALİM QASIMOVA

Bir “Segah” avazıyla qəlbimi sevda dolandı,
Xəzan vurmuş çəməni bülbüli-şeyda dolandı.

Elə bil təşnə imiş qəlbdəki möhnət bu səsə,
Qəlbim açıldı bu dəm, möhnətə vida dolandı.

Oxudu, cuşə gəldi, avazı qalxdı göylərə,
“Yaşa, min yaşa, əhsən”, dilimdə nida dolandı.

Seyr edirkən bu anlarda kəhkəşanı gözümlə,
Zənn etdim ucaldı avaz göyləri səda dolandı.

Muğamın təranələri məlhəmtək yayıldı cana,
Axdı damarlara bir mənəvi qida, dolandı.

Muğamın hər nöqtəsi aydın sanılsa da, amma
Muğamda yeni üslub, bir yeni qayda dolandı.

Bu səsin sehrindən sanasan dəyişdi dünya,
Şər getdi, gəldi xeyir, oluban peyda dolandı.

...Aləmə sənətilə tanıtdı Alim vətəni,
Hər səfər səsində müdam “vətənə fəda” dolandı.

# MƏNİM DÜNYAM

DÜNYA

Əzəlin qaranlıq, sonun görünməz,
Aç mənə sirrini, ey ulu dünya.
Yaddaşa sığmazsan, yaşın bilinməz,
Sirlər yığını, sorğulu dünya.

Kitablar oxudum, dedim kamiləm,
Əsərlər yaratdım, sandım aqiləm.
Birdən anladım ki, aza nailəm,
Zülmət pərdəsilə örtülü dünya.

Baş vurdum ulduza, səmaya, aya,
Dərinə getdikcə düşdüm bəlaya.
Gördüm ki, oxşarsan sonsuz dəryaya,
Çox cüzi yerlərdə körpülü dünya.

Kimlərə qardaşsan, kimlərə yağı,
Kimlərin sakitcə söndü çırağı.
Səndən köçənlərin yoxdur sorağı,
Ağrılı, acılı, qorxulu dünya.

Sən bir pəncərəsən, tayları açıq,
Kimi saray gördü, kimi alaçıq.
Kiminə çox düşdü, kimə azacıq,
İstili, soyuqlu, bürkülü dünya.

Kiminin qayğısı bir kiçik bostan,
Kimin həyatına qoşuldu dastan.
Kiminin bağçası olub gülüstan,
Çox gördün kiminə bir gülü, dünya.

Kimi qürbət eldə qalıbdı darda,

Kimi ömür sürür güllü baharda.
Kimi fəryad edir şaxtada, qarda:
“İstisi bilinməz, tüstülü dünya”.
Nədən biganəsən ahu-fəryada,
Məhəl qoymayırsan qohuma, yada.
Bir-bir dənləyirsən, sonra asudə
Gözləri yumulu, mürgülü dünya.

Həyat bir tamaşa, üstün səhnədir,
Oynayan insandır, oyun köhnədir.
Onu kim yaradıb, məramı nədir,
Sirr kərpici ilə hörgülü dünya.

Tarazın pozulmuş əzəl binadan,
Düşünən tək-təkdi, nə çoxdu nadan.
Mümkünmü düzələ mizan sonradan,
Yoxsa o yaranıb burğulu, dünya.

Soyulan ustadım sondan sayıldı,
Bir dahi var idi, dağdan atıldı.
Digərin cismindən tonqal çatıldı,
Küləyə səpildi boz külü, dünya.

Sinəmi sarsıdır Şəhriyar ahı,
Cavidin, Müşfiqin nəydi günahı?
Dahilər susdurdun, düşün sabahı,
Yaraqlı, yasaqlı, süngülü dünya.

Bir nadan moizə edir bayağı,
Aqillər dinləyir başı aşağı.
Kim salıb dəyişik başla ayağı,
Fitnələr üstündə qurğulu dünya.

**PALID ƏFSANƏSİ**

Bir soyuq keçiddə durub dilənçi,
Bir qarın yeməkdir onun umancı.
Seyr edir saraydan onu milyonçu,
Necə ədalətsiz bölgülü dünya.

Nikbinlik notları sorma bu səsdə,
Sanki bir məhbusam dəmir qəfəsdə.
Azadlıq diləyi canda, nəfəsdə,
Onun bilinirmi bir yolu, dünya?

O güllü baharın söylə necoldu?
Nədən döndü dövran, belə kəc oldu?
Əl-ayaq süstləşdi, sanki qıc oldu,
Bir vaxtlar mənimlə sevgili dünya.

Dağlara öz tutdum qüssəm azaldı,
Qəm-kədər zolağı bir az daraldı.
Nəğməkar quşlardan könül bar aldı,
Susdurma oxuyan bülbülü, dünya.

Biz gəldi-gedərik, o qoy oxusun,
Səsindən meşələr feyziyab olsun.
Kədərli əhvallar bəlkə durulsun,
Onda qazanarsan "sağ olu", dünya.

Hissiyyat yükündən qəddim kamandır,
Həssas sinələrin günü yamandır.
Ürəyim, sanma ki, çox şey umandır,
Gəl götür üstümdən müşkülü, dünya.

Ədalət toxumu bir vaxt bitərmi,

İdrak yorğunluğu sona yetərmi.
Öylə bir zamanın, söylə, gələrmi,
Canım suallardan qurtulu, dünya.

Bir həqiqətmisən, yoxsa əfsanə,
Düşünsəm, bilirəm, sonum divanə.
Niyazlı diz çöküb yalvarır sənə:
İncitmə mənim tək bir qulu, dünya.

İYİRMİNCİ ƏSR

Yolumuz şaxələndi-eylədi işarə əsr,
Baş alıb tarixlərə çəkildi kənarə əsr.

Öyrəşib üz-gözümüz biz ona vərdiş idik,
Biganə gözəl təki zidd çıxdı ilqarə əsr.

Bilmədik şükr eyləyək, yoxsa ki köks ötürək,
Bir üzü ağ olsa da, bir üzü də qarə əsr.

Üz tutub ulduzlara göyə mehr etdi bəşər,
Bəşərə bəxş elədi gör neçə səyyarə əsr.

Mən-mən deyən neçə zalimə eylədi sitəm,
Yaratdı, düzüb-qoşdu neçə cür məcarə əsr.

On dörddə alovlandı qana çalxandı cahan,
Qırx birdə tonqal çatıb rəqs etdi dübarə əsr.

Düçar olub qırğınlara çalxansa da dünya,
Birəbeş artdı bəşər güc verdi miqdarə əsr.

Bir sərsəm anatək dahilər doğdusa, sonra
Öz əliylə məhv edib göndərdi məzarə əsr.

## PALID ƏFSANƏSİ

İki nəhəngdən birini sürüdü, yıxdı,
Olunsun dünya, dedi, qoy belə idarə əsr.

Elimə oldu sınaq əzəli, həm də sonu,
Düzgünə zülm elədi, yol açdı qəddarə əsr.

“Qaralar dilindədi, bəs ağımı hara yazaq”,
Qınağı rədd elədi, dözmədi inkarə əsr.

Gördüm ki düz buyurur, arşınım qüsurludur,
Nisbinin ölçüsü yox, möhtacdı meyarə əsr...

## ƏLLİ YAŞIM

Kədərlənim, sevinimmi,
Xoş gəlmisən, əlli yaşım.
Baş bulayıb deyinimmi,
Xoş gəlmisən, əlli yaşım.

Sayğac təki vurdu illər,
Düzülübən durdu illər.
Öz işini gördü illər,
Xoş gəlmisən, əlli yaşım.

İllər keçdi qeylü-qallı.
Qalan məchul, gedən bəlli,
Suallar çox, yoxdur həlli,
Xoş gəlmisən, əlli yaşım...

DİVANİ

Dünyanı daimi sandı, aldanıb bəşər getdi,
Gözləri dünyada qalan nigaran nələr getdi.
Nə sirrdir ki, baş açmadım, gedəni ağlar gördüm,
Əcəl dəmi kimi gördüm boğazda qəhər getdi...

Həyatdan mal ilə mülk yox, mənəvi sərvət götür,
Köçəndə haqqın evinə özünə rəhmət götür.
Göz gəzdir dörd yanına naqisdən ibrət götür,
Qoy deməsin sonra gələn rüzgarı hədər getdi.

Biliyin dəyərin danma, alimə etmə həqarət,
Aqilə kinayə etsən, bax bu olar cəhalət.
Tanrının hökmü yerində gəl axtarma dəlalət,
Niyazlı üz tutdu Ona, qəlbindən kədər getdi.

PALID ƏFSANƏSİ

Cavan Palıd kök atıban biyabanda qalxdı, bitdi,
Kölgəsində neçə-neçə müsafiri rahat etdi.

Qısqandılar qasırğalar, hücum çəkdi qara yellər,
Məğrur Palıd əyilmədi, tufanlara sinə gərdi.

Güc düşmədi gur Palıda, üz tutdular ildırıma,
Qəddar şimşək şaqqıldadı, mərd Palıdın sonu yetdi.

Son nəfəsdə bu dünyaya həqarətlə baxdı Palıd,
Gözlərini yumdu getdi, bir ömür də belə bitdi.

Baş açmadım seçimindən bu amansız zəmanənin
Görəndə ki, bu dünyada kimlər qaldı, kimlər getdi.

# YURD NƏĞMƏLƏRİ

YURD NƏĞMƏLƏRİ (poema)

*İyirmi altı il əvvəl (1969) kəndimiz zəlzələ və sürüşmədən dağıldı. Uzun ayrılıqdan sonra o yerlərə səyahət etdim. Poema həmin səfərin təəssüratıdır...*

Dağlar aşıb pay-piyada,
Nəfəs dərib hər qayada,
Öz tutmuşam doğma elə,
Xoş günləri salım yada.

Gəzə-gəzə çəmənləri,
Yada salıb ötənləri,
Üz tutmuşam o yurda ki,
Görməmişəm çoxdan bəri.

Yanaşdıqca o torpağa,
Ürək sanki dönür dağa.
Susuzluğu dəf eyləyib
Baş əyirəm hər bulağa.

Göz doymayır təbiətdən,
Xuda vermiş bu nemətdən.
Bu yaşıllıq, bu saf hava
Yaranıbdır kəramətdən.

Bu ziyarət müqəddəsdir,
Ülviyyətlə bir təmasdır.
Doğma yurdu unudanlar
İnsan deyil, bir nakəsdir.

**PALID ƏFSANƏSİ**

Bu gəliş də bir imtahan,
Ürəkdə bir xoş həyəcan,
Sanki sual olunacaq
Niyə yoxsan bu çağacan.

* * *

Salam olsun, ana torpaq,
Aç qolunu qucaqlaşaq.
Çözələnsin xatirələr,
Keçmişləri yada salaq.

Salam olsun, ana torpaq,
Ana-bala gəl oturaq.
Söz bulağı aşsın-daşsın,
Cəlalına nəğmə qoşaq.

Ana yurdum, gəl görüşək
Tale dönük, ömür gödək.
Uzaqlarda arzulayıb
Səndən ötrü göynər ürək.

Qəm yükünü yerə qoyaq,
Layla desin "Novruz bulaq".
Nəzər salaq hər cığıra,
Xatirələr qalaq-qalaq.

"Dalkı dağ"dan dağ-arana,
Nəzər saldım hər qayana.
Yenə gəldim səni gördüm,
Şükür olsun yaradana.

Göz gəzdirdim məzarlara,
Xəyal burda gedir hara...

Xuda-bəndə rəhm eləsin
Gedənlərə, qalanlara.

Qovanları, qaçanları,
Sonra fələk biçənləri,
Bir "Yasin"lə yad elədik
Burda yatan köçənləri.
Burda yada düşür nələr,
Hanı bizim xan nənələr.
Silinməzlər xatirədən,
Lap ötsə də qərinələr.

Gör bu dövran nə biganə,
Yox babamdan bir nişanə.
Məzarı da seçilməyir,
Nəvə gedib bir dayana.

O nurani bir şəxs imiş,
Hər imdada tələsərmiş.
Onunçün cahan fani,
Dünya malı əbəs imiş.

* * *

Hüzurunda durub oğlun,
Fikir dalğın, idrak yorğun.
Dinclik üçün bura gəldim,
Çünki könül sənə vurğun.

...Çox qalırdı hələ qışa,
Düçar olduq bir bayquşa.
Məcbur idik qulaq asaq,
Nifrət ilə biz o quşa.

**PALID ƏFSANƏSİ**

Yadındamı o zəlzələ,
Nələr etdi bizim elə.
Övladların düşdü pərən,
Sinələrdə ahu-nalə.

Yadımdadır həmin o il,
Sevincimiz itdi qəfil.
Nə acı şeymiş dünyada
Uşaq qəlbin əzən nisgil.
O zaman ki, yer sürüşdü,
Övladların dərdə düşdü.
Can bir qəlbli sakinlərin
Ayda-ildə bir görüşdü.

Bu məktəbdə dərs oxurduq,
Hərflərdən səf toxurduq.
Hərdən dərsi bilməyəndə
Titrəyərək biz qorxurduq.

Çox övladın tutdu mənsəb,
Çünki onda vardı tələb.
Ona görə ad qoydular:
"Dağ altında ali məktəb"

Bu məktəbdə birinciydim,
Bu məktəbin sevinciydim.
Gecə-gündüz çalışardım,
Əziyyətə öyrənciydim.

İlk təhsili burda aldım,
Kitablara həvəs saldım.
Hər nə düşdü oxuyardım,

Ki dünyadan baş çıxardım.

Onda dünya bir nağıldı...
Amma illər nə paxıldı,
Təxəyyül tək o məktəb də
Viran olub tez dağıldı.

Qulağıma çatıb mənim,
Bir ağsaqqal müəllimim,
Tez-tez məni yada salır,
Bundan böyük nə təltifim.

...Budur, bizim evin yeri,
Saymaz idik dərdi-səri.
Axşamüstü gün batanda
Haylayardıq inəkləri.

"Pir armudu" hələ durur,
Duruşunda sanki qürur.
El gələndə o dirçəlir,
Qayıdanda boynun burur.

Hey günləri saya-saya,
Darıxardıq ilə-aya.
Bətndəki uşaq kimi,
Can atardıq bu dünyaya.

Dedik, dünya rəngarəngdi,
Solğun olan bircə kənddi.
Nə biləydik, dünya saxta,
İçi cılız bir nəhəngdi.

**PALID ƏFSANƏSİ**

Qayıdarmı ötən günlər,
Dirçələrmi solan güllər,
O anlar ki keçib gedir,
Qədrin insan sonra bilər.

“Gölə” baxdım göz yaşardı,
Bura sanki bir hasardı.
Səhər, axşam, günortalar
Davar bura yığışardı.

Sağıcılar tələsərdi,
Qoyun-quzu mələşərdi.
O cah-cəlal, o təbiət
Yazılmamış bir əsərdi.

Quzuların mələşməsi,
Çobanların tütək səsi,
Yaddaşıma həkk olunub
O illərin mənzərəsi.

“Göl yerində” top oynardıq,
Qana, tərə boyanardıq.
Gün ucalıb yandıranda
Əldən düşüb dayanardıq.

Uzun sürən qış ayları
Hey gözlərdik bayramları.
Çərşənbədə küləş yığıb
Qalayardıq tonqalları.

Bir gün yendik “Yemşənliyə”,
Uşaq ağlım onda niyə,

Ayğır ata qoşa mindik,
O da çırpdı çəmənliyə.

“Ağ qaya”da ot biçərdik,
“Daş bulaq”dan su içərdik,
Axşam vaxtı tələsəndə,
“Cacıqlı”dan düz keçərdik.

Biz “O tayda” ot biçəndə,
Buz bulaqdan su içəndə,
Qoca gəldi, ərk elədi,
Ordan ötüb yol keçəndə.

Getdim çıxdım “Yelli yurd”a
Selavları selli yurda.
Bu dağlardan ayrılsam da,
Xəyal donub qalıb burda.

Ordan çıxdım “Xan Bulağ”a,
Nəzər saldım sola, sağa.
Axtar görüm bu dünyada
Dağ çatarmı “Keçəl dağ”a.

Bir çalada “Karvan bulaq”,
Gizlənibdir gözdən uzaq.
Öz başına axşam vaxtı,
Sürüləri yığar qonaq.

“Salvartı”dır solda durub,
Asimanla büsat qurub.
“Üç qardaş”la yarışdadır,
Kim ucadır – məndən sorub.

"Sümüklü"dən qar qurtarmaz,
Göl-çiçəyi vaxtsız solmaz.
Hirslənəndə üzün görmə,
Tufanından sapmaq olmaz.

"Pünhan bulaq" bir möcüzə,
"Qanlı göl"də qazlar üzə.
Bu dağları qarış-qarış,
Göz oxşaya, ayaq gəzə.

"Batabat"a et tamaşa,
Gözəllikdən göz qamaşa.
Bahar çağı bu yamaclar,
Bürünübdür al qumaşa.

* * *

Bir zirvədə oturmuşam,
Sanki sərbəst, azad quşam.
Az da olsa imkan tapıb
Dar qəfəsdən qurtulmuşam.
Bu zirvədə əsən yellər,
Sanki ruha məlhəm çilər.
Unutdurar dərdi, qəmi,
Xəstə özün xoşbəxt bilər.

Dərələrdən qalxdı duman,
Aşağını tutdu bir an.
Bu zirvədə bir müddətə
Aralandım bu dünyadan.

Dünya ağdır, zirvə yaşıl,

Ətraf dəniz, bura sahil.
Qoy bu tablo bir az dursun,
Getmə duman, olma paxıl..

“Göz oxşadım daha bəsdir,
Onu bil ki, yaylaq tərsdir”, –
Deyib duman aralandı –
Bu yalvarmaq tay əbəsdir.

“Gur bulağ”ın aşsın-daşsın,
Dədə Günəş şəfəq saçsın.
Dünya fani, ölüm-itim,
Övladların qoy barışsın.

Kölgələrin sərinliyi,
Bənövşənin ətri-iyi,
Bəlkə babam burda demiş:
“Ana südü, dağ çiçəyi”.

Şəhriyarsayağı haşiyə:

Bu dağlardan nə karvanlar keçibdir,
“Fərhad evi” öz qapısın açıbdır.
Zalım fələk neçə canlar biçibdir:
“Gəldin gördün, köç eylə, daha bəsdir,
Nə uymusan xam xəyala, o əbəsdir”

Kəndin ancaq yeri qalıb,
Bulaqlardan su azalıb.
Beş-üç çadır gözə dəyir,
Ətrafında ot saralıb.

**PALID ƏFSANƏSİ**

Bir çadırdan qarı nənə,
Diqqət ilə baxdı mənə:
“Ay oğul, nə əcəb səndən,
Xoş gəlmisən bu vətənə”.

Çadırlara səs-küy düşdü,
Qoca-cavan tez yığışdı.
Üzlər doğma, səslər tanış,
Söhbətlərə baş qarışdı.

...Axşamların nə gözəldir,
Gün yerini aya verdi.
Səma nura qərq olundu,
Burda qalan bəxtəvərdi.

Ay işığı ocaq başı,
Xatirələr aşıb daşı.
Zaman sanki geri dönür.
Keçən günlər lap yanaşı.

Ulduzların sayrışanda,
Xəyal göydə dolaşanda,
Səma sanki bir xonçadır
Yer göy ilə barışanda.

... Səhər tezdən namaz səsi,
Sanki göylər tərənəsi,
Yaddaşımda oyandırdı
Əziz ata xatirəsi.

Çadırımı döydü külək,
Bəsdir yatdın, dur bir görək.
Bu açılan xoş səhərə
Bir zövq ilə baxmaq gərək.

Əkinlərin yaz şırımı,
“Ağ qaya”nın sıldırımı,
Göylərə baş vuran dağın
Saya salmaz ildırımı.

Qan qaraldan “Qara yoxuş”,
Əziyyətin məndən soruş.
İndi necə doğma gəlir
Orda bizi tutan yağış.

İndi ordan yol çəkilmiş,
Asanlaşıb gediş-gəliş.
Köhnə cığır itib-batıb
Elə bil ki heç yox imiş...

Yarpaqların pıçıltısı,
“Beş bulağ”ın şırıltısı,
Bir məlhəmdir əsəblərə
Üfüqlərin parıltısı.

Qəlb oxşasın xoş bir avaz,
Qarşı dağa baxaq bir az.
Sinəsində bax o dağın
Doğulubdur Məmməd Araz.

Gəl ustadı yad eyləyək,
Sınıq qəlbin şad eyləyək.

Qənimətdir millətimə,
Xudadan şəfa diləyək.

* * *

...”Fəxri gələn”dən bir çoban
Dedi, “Birin oxu, gözə qurban”.
Mən tez yazdım bayatını,
Dost oxudu elə ordan.

Çoban dedi: “Sağ ol, əhsən”,
Sonra özü o zirvədən
Nə oxudu şikəstəni,
Ürəkləri inildədən.

O mənzərə bir lent kimi
Hey ağrıdır ürəyimi.
Nəydi onu qəmləndirən,
Yaxınlaşan zəlzələmi...

...Kəkliklərin qaqqıldaşa,
Fərələri yaldan aşa.
Bircə kərə uf demərəm,
Ömrü burda vuram başa.

İlk baharda gələydim kaş,
Səhlablardan dərəydim kaş.
Qar əriyib göl çıxanda,
Çəmənlərdə gəzəydim kaş.

* * *

Səndə əsən sərt küləklər
Sanki mərdi cəngə səslər:
“Vətən oğlu, indi yatmaz
El qeyrəti çəkən kəslər”.

...Ulu babam Qarabağdan*,
Köç eylədi o torpaqdan.
Orda bülbül cuşə gələr,
Səsi gələr hər budaqdan.

İndi orda hava duman,
Kəsilibdir yollar yaman.
Kömək dilər göz qapaqdan,
Səmum yeli əsən zaman.

O yerlərin nalə səsi,
Kəsilibdir zənguləsi.
Bizlərə dərs olacaqmı,
İfritənin nəhs nəfəsi.

Bir dalğada elə indi
Xan oxudu “Mahur-hindi”.
O ulu səs, o muğamat
Bu dağlarla həmahəngdi.

O qəmli səs yay səhəri
Xırdaladı gör nələri.
Bəlkə ustad hiss edirmiş

* *Orta əsrlərdə babalarımız Qarabağdan Zəngəzura, oradan da Naxçıvana köçüblər.*

Başımıza gələnləri.

Oxuduqca Xan muğamı,
Fikirləşdim bir məqamı.
Günahımız çox böyükdür,
Şuşa bizi bağışlarmı?

“Əziziyəm qara bağ,
Ayaq saxla, qara bax.
Çox yaralı sinədə
Bir nisgildir Qarabağ”.

Mansırını çaldı aşıq,
Göz yaşları, qəm qarışıq.
Xocalıya ağı dedi,
Məzarlara bir yaraşıq.

Bu gün cani bayram edir,
Halalımı haram edir.
Qisas günü gələcəkmi,
Tarix hələ aram edir.

Bəli, o gün gələcəkdir,
Haqq sözünü deyəcəkdir.
Eşşək başı – xonça, tutmaz,
Diyirlənib düşəcəkdir.

O gün mütləq gələcəkdir,
Tarix hökmün verəcəkdir.
Harınlamış xain düşmən,
Cəzasını çəkəcəkdir.

Bu çaşqınlıq keçib gedər,
Bu azğınlıq sona yetər.
Alnı qırış qoca tarix
Zülm görübdür bundan betər.

Oğuz eli, ayağa qalx.
Oyan, silkən, ətrafa bax.
Bəsdir dözdün iniltiyə,
Vaxt yetişib, yaraqlanaq.

Mərd igidlər sıralansın,
Babaları yada salsın.
“Heyratı”nın hayqırtısı
O dağlarda dalğalansın.

Azad edək torpaqları,
Alovlayaq ocaqları.
Təmizlənək bu ləkədən,
Yelləndirək bayraqları.

* * *

...Səndən ayrı düşən gündən
Həyat sanki qara zindan.
Sınaqlar ki çözələndi,
Usandırdı məni candan.

Meteor tək göydə üzdüm,
Məşəqqətə mətin dözdüm.
Çox düyünlər dəf eyləyib

**PALID ƏFSANƏSİ**

Coşqun çayda tərsə üzdüm.

Həsrət qaldım əsən yelə,
Bahar çayı coşan selə.
Uşaqlığı çox sələdim
İnsaf edə bir də gələ.

Tale atdı uzaqlara,
Nüfuz etdim ulduzlara.
Asimandan xəbər verdim,
İdrak çatdı gör bir hara.*

O mühitdən çox şey aldım,
Ögey ikən doğmalaşdım.
Bir fərd ikən millətimə
Davranışla bir iz saldım.

Kitablarla çox əlləşdim,
Kamilləşdim, püxtələşdim.
Lovğalıqdan uzaq oldum,
Ad aldıqca sadələşdim.

Alimlərlə kəlləşdim,
Çətinliklə sinələşdim.
Çox zirvələr fəth eyləyib,
Nəfəs alıb yüngülləşdim.

---

* *Uzun illər ərzində yaratdığım 9-cu planet nəzəriyyəsinə işarədir*

Orda günüm pis keçmirdi,
Fəqət qəlbim heç açmırdı.
Vətən qara geyən zaman
Firavanlıq yaraşmırdı.

Hissiyyatdan gəldim zara,
Baş götürüb köçdüm bura.
Amma burda nələr gördüm –
Qulaq asaq Şəhriyara:

“Heydərbaba, səni Vətən bilmişdim,
Vətən deyib baş götürüb gəlmişdim.
Səni görüb göz yaşımı silmişdim,
Halbuki lap qəmli qürbət səndəymiş
Qara zindan, acı şərbət səndəymiş”.

Ustad necə sərrast demiş,
Mənəviyyat zəhərlənmiş.
Vətən eşqi, el təsibi
Elə bil ki heç yox imiş.
Bir qisimdə biganəlik,
Qarnıtoxluq yeganəlik.
Rəhmət sənə, Məmməd Səid,
Düzün, dedin, nəkarəyik.

Bir qisimi ac-yalavac,
Bir qarın tox, bir qarın ac.
Ürəkdə dərd, üzdə kədər
Çoxdan məhrum, aza möhtac.

Ey dünyadan uman səfa,

**PALID ƏFSANƏSİ**

Aç gözünü, bax ətrafa.
Gör millətin nə gündədir,
Qan ağlayır, çəkir cəfa.

Ey Vətəndən uman insan,
Bu Vətənə nə vermisən.
Alaq basmış bu tarlada
Hansı gülü bitirmisən.

Hərə bir gül bitirsəydi,
Bəxt ağacı gətirsəydi,
Vətənimiz güllüzardı,
Xuda dada yetirsəydi.

...Gəl səninlə qoşa duraq,
Yaradana əl uzadaq.
Bu dar gündə kömək üçün
O Varlığa biz yalvaraq.

Sən ki paksan, mən də təmiz,
Qoy ucalsın haqq səsimiz.
Gəl bir yerdə dua edək,
Qoy çin olsun niyyətimiz....

Çərxi-fələk qurub qurğu,
Düz niyyətə yoxdur sorğu.
Bu dünyada çox şey gördüm,
Hər şey yalan, sənsən doğru.

* * *

Üç gün burda qonaq oldum,
Dərdi-qəmdən uzaq oldum.

Ana qoynu nə rahatdır,
Hər qayğıdan uzaq oldum.

Bir arzum var, gərək deyəm:
Cibdə dəftər əldə qələm,
Çox demirəm, bircə dəfə,
İldə sənə qonaq gələm.

Bir gün olar, el qayıdar,
Burda təzdən büsat qurar.
Yeniyetmə övladların
Babaların xatırlayar.

Ay səmadan nur səpəndə,
Qəmli gözlər yol çəkəndə,
Ruhum burda pərvaz edər,
Cism olsa da dar məkanda.
Yel çaylara züy tutanda,
Qartal göydə qıy vuranda,
Həsəd nədir, onda bildim,
Quş qartaldan qurtulanda.

Yaxındayam, ya uzaqda,
Cövlan edər könül burda.
Nə qədər ki can cisimdə,
Xəyal qoymaz zövqü darda.

Qal salamat, ana torpaq.
Vaxt yetişib, gəl ayrılaq.
Qoy doyunca baxım sənə,
Ürək sanki titrək yarpaq.

Qış ayları daralanda,

**PALID ƏFSANƏSİ**

Bahar qışdan bac alanda,
Nisgil ürək qubarlanar,
Qövsü-quzeh qurulanda.

Bulaqların çağlayanda,
Bənövşələr boylananda,
Xəyal burda seyrə çıxar
Sünbüllərin saralanda.

Üfüqlərin qaralanda,
Xeyir şəri qovlayanda,
Elə bil ki, o səs mənim
Miskin aşiq boylayanda.

Qal salamat, ana torpaq,
Gəl səninlə vidalaşaq.
Kaş ki tale qismət edə,
Hərdən səndən soraq salaq...

*1995*

ŞAHBUZUM

Ey üzü nurlu, şah bulaqlı, ulu Şahbuzum.
Yay ki gəldi, qonaqlarla dolu Şahbuzum.
Hikmətli, məzəli, duzlu sözlü Şahbuzum.
Durna gözlü Şahbuzum.
Sənin hüsnünü vəsf etməyə sözlər nə aciz,
Sənin gözəlliyini duymağa gözlər nə aciz.
Qışı yumşaq, yayı yaylaqlı, buzlu Şahbuzum,
Gölləri qazlı Şahbuzum.

Səndən uzaqlarda dünya necə dar gəlir,
Bircə ili gəlməyəndə bu iş mənə ar gəlir.
İşvəli, qəmzəli, sevimli, nazlı Şahbuzum,
Saf nəğməli, sazlı Şahbuzum.
Saf niyyətli, əqidəli övladların sayı yox,
Övladların bənzəri yox, tayı yox.
Şairlər vətəni, Məmməd Arazlı Şahbuzum,
“Zor bulaq”lı, xoş sabahlı, bahar-yazlı Şahbuzum,
xoş avazlı Şahbuzum.
Nə qədər canında can var, unutmaz səni,
Səni daim vəsf edər bu Niyazlı Şahbuzum.
Zirvəsi bəyazlı Şahbuzum.

KƏNDİM

Hüzurunda dayanmışam,
Kədərlisən niyə, kəndim?
Sual gəzir dodağımda –
Kədərlisən niyə, kəndim?

“Sarı bulaq” niyə axmır?
Gözəllərin nişan taxmır.
Haçandır ki həna yaxmır,
Kədərlisən niyə, kəndim?

Ötən gündən bir soraq yox,
Fərəh məhdud, qəm də ki çox.
Sinəndə var sanki bir ox
Kədərlisən niyə, kəndim?

Şırım-şırım qırışların,
Məhzun-məhzun baxışların.
Qəlb göynədir ağ saçların,
Kədərlisən niyə, kəndim?

Məzarlarla üz-üzəsən
Tufanlarla göz-gözəsən,
Niyə gəldin bəd gözə sən,
Kədərlisən niyə, kəndim?

MAARİF TƏMKİNƏ

Yenə bu yerdəyəm, şair qardaşım,
Bir ovuc torpağı qazmağa gəldim.
Qəlbimdə min hisslər keçir bu anda,
Onlardan bir qismini yazmağa gəldim.

Yaddaşda canlanır hey tanış adlar,
Mələşən sürülər, kişnəyən atlar.
Qəlbi alt-üst edir bu səssiz notlar,
Bu müdhiş sükutu pozmağa gəldim.

Məzarlar baş-başa, gör kimlər yatıb,
Gör kimlər uyuyub, məqama çatıb.
Qarışıq dövranda bir macal tapıb,
Bəsitdən ülviyə "sızmağa" gəldim.

Xaraba önündə daldım xəyala,
Gözlərim yol çəkdi, baxdım o yala.
Xəyal cövlan etdi, qayıtdım dala,
Zaman axarından azmağa gəldim.

Burada əzizdir hər iz, şairim,
İlhamı qədərsiz, dəniz şairim.
Ömür – rəsm əsəri, əziz şairim,
Zərif bir cizgi də cızmağa gəldim...

# DEYİŞMƏLƏR

TAĞI SADİQLƏ 1-Cİ DEYİŞMƏ
*(yumor)*

“Qahım məllim”, – dedin mənə, mənsə sənə: “qahım qardaş”,
Sən yer altında, mən göylərdə, yorulmayaq, ay qahım.

Mənim fikrim fəzalarda, səninkisə yer tərkində,
Belə yerdə yoldaş gərək, biz tutduraq, ay qahım.

Sən yer altda əcinnəni, mən göylərdə fələkləri
Soraqlayaq, ölçüb-biçək, qamçılayaq, ay qahım.

Əcinnələr yer altında mürgüdəydi, hürkütdünüz,
Dağıldılar yer üzünə, düşdü nifaq, ay qahım.

Bəlkə elə, metroçular, əcinnəyə dəyməsəydiz,
Sökülməzdi, dağılmazdı o İttifaq, ay qahım.

…Yer altında “çepe” olsa, çarəsini tapmaq olar,
Fəzalardan sızan “çepe” olsun iraq, ay qahım.

(Düşünmə ki, bir müştərək nəsnə yoxdur işimizdə,
Neytrin* görsəz xəbər edin, qamarlayaq, ay qahım).

Kömək etdin, para verdin, yer düzəltdik, faydası nə,
O səmtə də ayda-ildə bir yol tutaq, ay qahım.

---

* *Kosmik zərrəcik neytrin yalnız yer altında qeydə alınır.*

Deyirsən ki ulduz göstər, o turbadan baxanda da,
Tələsirsən – evə gedək, tez qayıdaq, ay qahım.

Şahmat ki var, mən biləni, biz millətə yazılmayıb,
Onun tərkin eylə, əvəzində şeir yazaq, ay qahım.

Bilirəm ki, hal əhlisən, külliyyatın niyə yoxdur.
Lazımdırsa yığışaq biz, düzək-qoşaq, ay qahım.

…Səhər-səhər, qapı ağzı, millət sənə vermir aman,
Bu mümkünmü hamıya da biz iş tapaq, ay qahım.

…Görürəm ki, mən günlüsən, qəlbi nazik, üzü yumşaq,
Qahımlardan baş götürək, hara qaçaq, ay qahım…

Şuxluğuna bələdəm mən, amma yenə xətrin qalsa,
“Qurd qapısı”, mən hazıram, gəl barışaq, ay qahım.

Getsək də ki, mən bilirəm, bir kimsəyə yoxdu fürsət,
Nə fərqi var, sənlik olsun, başı açaq, ay qahım…

## *Tağı Sadiqin cavabı (yumor)*

Nə yaxşı ki, məktub yazıb sən də bizi yad etdin,
Elə bildim göylərdəsən, yer altını tərk etdin.

Bir arzum var – metromuzun işləməsi ahəngi,
Yaxşı oldu, qohum-dostum, əl götürüb zəng etdin.

Baxdım göyə ulduzlara, diqqət etdim olmadı,
Çox israrlı olsam belə demə məni dəng etdin.

Yeraltilə göy qübbəsi birləşəcək parladı,
Bircə onu söyləmə ki, kiminləsə cəng etdin.

Millətimiz hər millətdən çox üstündür, biləsən,
Sədd heyif ki, Nizamiyə, Füzuliyə şəkk etdin.

Məmməd Araz yazan yerdə mənim yazım hədərdir,
Sənə açıq deyə billəm bu işləri tək etdin.

Qohum bütün varlıq ilə bir qandandır ayrılmaz
Yəqin ki, sən zarafatla insanlara ərk etdin.

İnsanlığın ucalığı yaxşılıqdır əzəldən,
İnanmaram ali insan – sən bunları tərk etdin.

Yaxşı-yaman gün ötəcək, bir insanlıq qalacaq,
Fikirləşmə kimlərisə xahişinlə söng etdin.

Yaşlaşarıq, işdən gücdən soyuyanda əlimiz,
Bəlkə verdim yazıları, varaqlayıb təng etdin.

Yaman yordum, qahım dostum, mümkün isə bağışla.
Amma bircə söyləmə ki, mənə yaman əng etdin.

TAĞI SADİQLƏ 2-Cİ DEYİŞMƏ

***T.Sadiq***
Gəl qalxaq zirvəyə, sizə yaxındır,
Pənbə buludlara əl ataq, qahım.
Fəsillər dəyişir, zaman axındır,
Bir-iki arzuya biz çataq, qahım.

***Ə.Niyazlı***
Üz tutaq dağlara, çıxaq zirvəyə,
O doğma yurdlara baxaq, ay qahım.
Ruhu tumarlasın, qəlbi kövrəltsin,
Həzin zümzüməli bulaq, ay qahım.

***T.Sadiq***
Təmiz bulaq suyu, şəffaf göz yaşı,
Əzizdir yurdumun torpağı, daşı.
"Səfərbəy səngər"in görünən qaşı
Olub hamımıza yataq, ay qahım.

***Ə.Niyazlı***
"Səfərbəy səngəri" – ad özü dərsdir,
Yüz yağı yeriyə, yüzünə bəsdir.
Bu adlar tarixdən bizlərə vəsdir*,
Hikməti adlardan tapaq, ay qahım.

---

* *Bəzi bölgələrdə vəsiyyət əvəsinə vəs deyilir*

**PALID ƏFSANƏSİ**

***T.Sadiq***
Bir gün qismət olar, baxaram Aya,
Necə düzülübdür görüm daş-qaya.
Döndərsən bucağı, baxaq o taya,
Nə qədər zəngindir, yazaq, ay qahım.

***Ə.Niyazlı***
Baş vurdum göylərə, ulduza, Aya,
Çata bildim balaca bir mənaya:
Dərk etmirik, nə bəxş edib xudaya –
Möcüzədir ana torpaq, ay qahım.

***T.Sadiq***
Dər baldırqan, yığ cacığı həzm eylə,
De sözləri, yaz kağıza, nəzm eylə.
Bu dünyaya hər gün üçün təzm eylə,
Görməyəsən bir gün yataq, ay qahım.

***Ə.Niyazlı***
Keşməkeş gərdişdən qaçaq, qurtulaq,
Macal tapıb yurdumuza üz tutaq.
Aqillərin söhbətindən söz tutaq,
Fələyə yüngülcə "ataq", ay qahım.

***T.Sadiq***
Saf qəlbini, ürəyini sevirəm,
Qohumlara gərəyini sevirəm.
Pirquluda çörəyini sevirəm,
Ola kaş bir isti otaq, ay qahım.

***Ə.Niyazlı***
Özün boyda ürəyin var, bələdəm,

Səxavətin, çörəyin var, bələdəm.
Dar məqamda harayın var, bələdəm,
Ürəkdə sönməsin ocaq, ay qahım.

Yazıq o şəxsə ki, ürəyi daşdır,
Cibləri doludur, daxili boşdur.
Sən mərdin tərifi bilsən nə xoşdur,
Məddah tərifindən qaçaq, ay qahım…

TAĞI SADİQLƏ 3-CÜ DEYİŞMƏ

**NİYAZLI**
Təbiət oyanıb, fəsli-bahardır,
Səsləyir qoynuna bu dağlar səni.
Götür altmış dördü, yetir özünü,
Yoxsa bağışlamaz bulaqlar səni.

**T.SADİQ**
Sağlam cana təbiətin yox təbi,
Xəstə olan içər verilən təbi.
64-ün xəstəsiyəm biləsən,
Bilinməyib, bilinməzdir səbəbi.

**NİYAZLI**
Dövran fırtınadır, insan bir qayıq,
Bunun dərk etməliyik, nə qədər varıq
Həyat bir şahmatdır, olmasan sayıq
Bir sarsaq piyada ayaqlar səni.

**T.SADİQ**
Səninlə görüşlərim fəsli-bahardır,
Hayıf bu görüşlər azdan da azdır.

**PALID ƏFSANƏSİ**

İstərəm, tezliklə görüşək, qahım,
Elə fikirləşmə, bu bir xəyaldır.

**NİYAZLI**

Ömür karvanımız baş alıb gedir,
Zaman qismətimiz boşalıb gedir.
Bəzən şahlar da çaş qalıb gedir,
Yarıda qoymasın sınaqlar səni.

**T.SADİQ**
Ruhum sakitləşir 64 ilə,
Səninlə görüşdə çıxmaram zilə.
Təki yanımda ol, qəlbən güc alım,
Piyadalar hücum etməsin filə.

**NİYAZLI**
Demədim taxtanı sən qoy bir yana –
Vurğunluq baxmayır yoxluğa-vara.
Arabir vaxt ayır, təbini ara,
Saxlayar tarixdə varaqlar səni.

**T.SADİQ**
Şahına həmişə yaxşı qala qur,
Top ilə bərabər keşiyində dur.
İşdir, top çıxarsa atəş xəttinə,
İrəliyə çıxsın bir piyada nur.

**NİYAZLI**
Tanrıdan təb gəlib olubsa miras,
O təbi cəmləşdir, şux nəğmələr yaz.
Niyazlı sözünə qulaq as bir az,
Asmasan qahımın qabaqlar səni

TAĞI SADİQƏ*

Kiçik təpələrdən bir şey gözləmə,
Qayasan, haylasın qayalar səni.
Aslanı axtarar aslan dünyada,
Nə lazım arasın tulalar səni.

Həyatın, rüzgarın olubdur gərgin,
Hamıya əl tutdun, yaşadın düzgün.
Odur ki dualar çin olar bir gün,
Tərk edər tezliklə bəlalar səni.

---

* *Xəstəlik üzündən Tağı müəllimin hərəkətləri bir qədər məhdudlaşıb. Ümidsiz olmasa da, diqqətsizlikdən bir az giley edir. Bu kiçik replikanı ona ünvanladım.*

# LİRİK ŞEİRLƏR

SORAĞINDADIR

Min həsrətlə könül zülf-pərişanın sorağındadır,
Arzu asılı saplağı zamanın sınağındadır.

Bu firqət bir qəmli kitabdır, yazılır varaq-varaq,
Qubarım-iztirabım o kitabın varağındadır.

Günəşə cəzbkən səyyarə Günəşlə görüşə bilməz,
O səyyarətək cəzbdəyəm, Günəş göz iraqındadır.

Onu tapmaq üçün üz tutdum qaranlıq məchulluğa,
Sədası o məchulluğun na solunda, nə sağındadır.

Zülmətdə uçan pərvanəyəm, əsirəm tufanlara,
Ümidim-nicatım bir məhparənin çırağındadır.

Yerdən azalı güman baxışlar çevrildi göylərə,
Səda gəldi göylərdən – məna sənin fəraqındadır.

Üzüldü bu cavabdan yüz iztirab ilə Niyazlı,
Yarəb, nə səbəb ki, göylər bu hicrin marağındadır.

TƏCNİS

Gərgin günlərimdə, yorğun çağımda
Dadıma çatırsan, vəfalı təcnis.
Qəlbi ovundurub həmdəm olursan,
Havası, sözləri şəfalı təcnis.

Mən sənə vurğunam erkən yaşımdan,
Təmkinin, vüqarın getmir başımdan.
Dədə Ələsgərdən, Xəstə Qasımdan,
Gör neçə ustaddan cilalı təcnis.

Sənlə həmdəm olan bilməz qərəzi,
Səndəki sanbalın yoxdur əvəzi,
Bir ədəb himnisən, sərrast tərəzi,
Təzə gəlin kimi həyalı təcnis.

De keçən günlərdən, ötən sənədən,
Nağıl-bayatılı xanım nənədən,
Əlçatmaz babanı anım yenidən,
Apar keçmişlərə xəyalı, təcnis.

Hissə tənzim verən öz tarazınla,
Ovqatı duruldan güllü yazınla,
Ana laylasıtək xoş avazınla,
Tərk edək kədəri, məlalı təcnis.

İstər ifa olsun, istər qiraət,
Söylənən dastana sən ver təravət.
Əyyub qənaəti – budur həqiqət:

**PALID ƏFSANƏSİ**

Tarixdə əbədi qalalı təcnis.

BİR DƏ

Xəyalım uzaqda, yol çəkir gözüm,
Yarəb, o xoş dəmlər gələrmi bir də.
Özümdən bixəbər, mürgülü bəxtim
Dikəlib, sevinib gülərmi bir də?

Çoxdandır çarpazdır sinəmdə əllər,
Qarğıdı eşqimi qərəzli əllər.
Məndən üz çevirən sevgili dilbər,
Soruşub halımı bilərmi bir də?

Saraldıb intizar səbrimi kəsib,
Sanki öz yurdumda olmuşam qərib.
Bir vaxtlar hayıma hay verən təbib
Sinədən kədəri silərmi bir də?

Rəqib ki gen gəzib özünü öyə,
Niyazlı az qalır zamanı söyə.
Bir ümid görünmür, əl açıb göyə
Tanrıya üz tutmağa dəyərmi bir də?

BU GECƏ

Nə zamandır həsrət idik o yara,
Nəhayət ki, yetdik kamə bu gecə.
Sönük dünya işıqlandı gözümdə,
Ağız gəldi dada-tama bu gecə.

Dad çəkirdim naqislərin dilindən,
Məyus idim zəmanənin felindən.
Bezikibən kor fələyin əlindən
Varlıq qalxdı intiqama bu gecə.

Qalmış idik o dilbərlə təkbətək,
Şirin-şirin söhbət etdik sübhətək.
Sıxılmırdı intizarda bu ürək,
Gözləmirdim yardan namə bu gecə.

Doymaq olmur o işvəli sənəmdən,
Bir dilək var, qopur gəlir sinəmdən –
"Bir gecəlik mən sən olum, sən də mən,
Şəm mənimdir, ey pərvanə, bu gecə".

Ay da məhvərində eyləyib güzar,
Xoşallanıb pəncərədən nur sızar.
Göz vuruban göylərdəki ulduzlar
Sevindilər xoş mərama bu gecə.

Niyazlı fəxr edir kəramət ilə,
Tale bəxş etdiyi bu sovqat ilə.
Şirin anlarıyla, xoş ovqatilə

Bərabərdir min əyyamə bu gecə.

DAĞA
*(cığalı təcnis)*

Ayrılıq dərdinə dözə bilmirəm,
Mehrimi salmışam mən də bu dağa.

Mən aşiqəm bu dağa,
Bu çəmənə bu dağa.
Elə ki mən dözürəm,
Heç kim dözməz bu dağa.

Dəli könül, qəm eyləmə, gələr yaz,
Cəh-cəh ilə qonar bülbül budağa.

Xeyli vaxtdır mən həsrətəm namənə,
Namə yazmaq, nazlı sənəm, nəmənə.

Aşıq deyər nəmənə,
Acı dünya nəmənə.
Nə sən gördün ağ günü,
Qismət oldu nə mənə.

Quraq günlər həsrət qalıb nəmə nə,
Köçər ellər karvan ilə bu dağa.

Yana-yana səni qoydu canan, a.
Əlin yetməz bir də sənin canana.

Mən aşiqəm canana,
Ürək yanır, can ana.
Onu görsəm bir dəfə,

Mən verərdim, can ana.

Heç bilmirəm birdən gəldi canə nə,
Talenin son qurğusu budu, ağa*.

EY DOST

Yandırıb qəlbi dəlir bir yanıqlı fəryad, ey dost,
Mümkünmü dinləyib onu eyləmək imdad, ey dost.

Səbr zamanın sınağında, onunsa vəfası yox,
Qorxuram ömür keçə, qala gözdə murad, ey dost.

Tutmadı qürbətdə qərar, üz tutduq bu diyara,
Gül açan yerdə saralı, söyləmiş ustad, ey dost.

Gəldik ki, səfa görək, birə min artdı kədər,
Yox fərəhdən zərrə əsər, qalmış bir quru ad, ey dost.

Bülbüllər uçub, xəzan vurub baği-gülüstanı,
Yatıb qəflətə dalmış, biganədir səyyad, ey dost.

Nə fəna zəmanə gəlmiş, insan insanə cəllad,
Acdan toxun yox xəbəri, çoxalıb şəddad, ey dost.

Göz gəzdir məmləkətə, de görüm, varmı bu yerdə,
Eyləyib fəda özünü dağ çapan Fərhad, ey dost.

Sanma Niyazlını bədbin, həssaslıqdır mərəzi,

* *Atamın (ağa deyərdim) vəfatına işarədir.*

Kaş ki dəyişə dövran, könüllər ola şad, ey dost.

GÖZLƏR

Əqlimi, fikrimi alıb əlimdən,
Gör məni çəkməkdə na dara gözlər.
Titrədir qəlbimi, kəsir səbrimi,
Qələm qaş altından o qara gözlər.

Bezmişəm bu ümidsiz səbr-dözümdən,
Hər yuxu görəndə min cür yozumdan.
Deyin, çıxım qaçım özüm-özümdən,
Sizin əlinizdən bəs hara, gözlər.

Ürəyim dözməyir dərdi-fərağa,
Çəkməyin qəlbimi bunca sınağa.
Müşküldür yetişmək o gül yanağa,
Görünmür möhnətə bir çarə, gözlər...

Bir sərhəd çəkilmiş, adlamaq olmaz,
Adlasan, mərdlikdən nişanə qalmaz.
Olarmı sizlərdən zövq alıb az-az,
Uyuyum kənardan-kənara, gözlər...

Ey könül, gəl barış nəhs qismət ilə,
Uylaşa bilməzsən yad xislət ilə.
Bir gün eşidərsiz, bu həsrət ilə
Niyazlı yollandı məzara, gözlər.

ALDATMASIN

Səni aldatmasın, gülüm, bu sakit çöhrəm,
Sönməz burulğanlar, təlatüm var içimdə.
Sığmayır bu dar dünyaya ilhamım, şövqüm,
Göylərə baş vuran qanadım var içimdə.

Hərdən özüm də bilməzəm nədir istəyim,
Niyə sığmır bu sinəyə arzu, diləyim.
Yoxsa nağıl, əfsanələr dilər ürəyim,
Ülviyyətə çapan Qıratım var içimdə.

Uymadım fani dünyada şöhrətə, şana,
İkrah doğuran tamahı atdım bir yana.
Sındıra bilmədi məni namərd zəmanə,
Vicdan adlı adil bir hakim var içimdə.

Nə yaltaqlıq, nə məddahlıq yoxdu qanımda,
Olmadım gözükölgəli kimsə yanında.
Etmədim vicdanla alver çətin anımda,
Məsləkə qulluq edən xadim var içimdə.

Usandım gözləməkdən, uçmuşmu ədalət,
Doğrayır qəlbimi gördüyüm zülm-zəlalət.
Ana südüyləmi gəldi bu həssas halət,
Ürəklər yandıran bayatım var içimdə.

ƏYYUB QULİYEV ( NİYAZLI )

İYİRMİ İL

İyimi il keçdi son görüşümüzdən,
İllər nə yaman
Tələsir, ay aman.
O vaxtlar səni görməməkçün,
Üz-üzə gəlməməkçün,
Özümə uzaq yol seçdim,
Elə bil özüm özümdən qaçdım.
Dedim, bəlkə ürəkdə bu yara
Sağala illərin həkimliyilə,
Bəlkə bu xəstəlik keçə
Zamanın köməkliyilə.
Ürəyə yalvardım, unut o yarı,
Çaylar geri axmaz bir də heç zaman.
Təbrik et oyunu udan əğyarı,
Nadandır qismətdən artıq pay uman.
Gəl səyahət edək uzaq diyarı,
Bəlkə orda tapaq kədərə dərman.
Həmişə göndərmir ömrə baharı,
Tale dediyimiz o dönməz karvan.
Baş alıb getdim...
Qəlbimlə sanki
Bir alver etdim.
İllər ötdü,
Aylar keçdi.
Tale düz yolu qoyub
Burulğan seçdi.
Bir sınaq məktəbi oldu
Həyatım mənim.

**PALID ƏFSANƏSİ**

Azalmadı qəlbdən heç
Kədərim, qəmim.

Bircə onu bilirəm ki, mən
Qorxuram təsadüf görüşümüzdən.
Qorxuram, təzələnə o iztirablar.
Qorxuram, tərpənə qaysaq,
Altından qan sıza
damla-damla...

GÖZƏLLİK NƏĞMƏSİ

Gedirdim güzarım gülzarə düşdü,
Gözəllər səfindən ilhamə gəldim.
Bu yorğun könlümdə tellər oynadı,
Bir əzgin durumdan səhmanə gəldim.

Qəlbləri oxşayır bülbül cəh-cəhi,
O şux gözəllərin incə qəh-qəhi.
Saxlaya bilmədim coşan fərəhi:
“Nə əcəb bu gözəl məkanə gəldim”.

Sənəmlər durmuşdu qönçə dərməyə,
İyləyib, oxşayıb zülfə hörməyə.
Seyr edib çevrildim incə nəğməyə,
Süzülüb barmaqdan kamanə gəldim.

Qızılgül veribdi gülzarə zinnət.
Baxanda qəlbimi tərk etdi möhnət.
Gözlərim önündə durubdu cənnət –
Düşünüb böylə bir gümanə gəldim.

O cənnət heç nədən yaranar çətin,
Mənzərə hökmüydü O iradətin.
Duyanda xaliqin bu kəramətin,
Kafirdim, çevrildim imanə gəldim.

Astaca çevrilib qayıtdım ordan,
Aldım təsəllini axan misradan.
Elə bil çıxmışdım qızmar səhradan,
Təşnətək yüyürüb ümmanə gəldim.

SƏNSİZ

Odlu ahım mənim dəryalar qurutdu sənsiz,
Gözlərim leysanlar yağdıran buluddu sənsiz.

Tərk edib getdin məni, bilmədin əhvalımı,
Vücudum xəzanlar saraldan bir otdu sənsiz.

Dünya gözümdə söndü, qürub etdi günəşim,
Mən olsaydım nə qəm, boğulan ümiddi sənsiz.

Dərdimi etmədim kimsəyə izhar, nə lazım,
Xatirat dəftərim alışdı, od tutdu sənsiz.

Qəm-kədər, qüssə bilməyən bu qayğısız ürək,
Sevinc nə olduğun büsbütün unutdu sənsiz.

Səbrü-qərarım sona yetmiş, xilasım sənsən,
Gəl çatdır özünü, həlakım labüddü sənsiz.

Yüz iztirab ilə qəzəli yazdı Niyazlı,
Aləm gözümdə heç, bir soyuq tabutdu sənsiz.

YUXU

Bir yuxu görmüşəm səhərə yaxın,
Bütün gün qərarım gedibdi əldən.
Dalğınam, arası kəsilmir ahın,
Gözlərim yol çəkir bilmirəm nədən.

Belə hal yox idi haçandan bəri,
Sevincim kədərə kəsildi qənim.
Bir vaxtlar sevdiyim o gözəl pəri
Mehmanım olmuşdu röyada mənim.

Nədəndir, soruşdum, gəlib getmirsən,
Nisgilli bir sinə təşnədir sənə.
Bu miskin aşiqi heç yad etmirsən,
Axan göz yaşını hərdən silsənə.

Kədər dəryasında bir qayıq kimi
Üz tutub qüruba fərəhsiz ömrüm.
Fələk bölgüsündə bir qalıq kimi
Sənsiz ötüb keçir gərəksiz ömrüm.

Ah çəkib başımı sıxdı köksünə,
Təbib tək ağrını aldı dilbərim.
Zaman bir andaca döndü tərsinə,
Acısı yox oldu miskin illərin

...Beləcə ayıldım şirin yuxudan,
Ruhun nə qəribə sirləri varmış.
İtmiş bir nəğməni qəfil oxudan
Gizlənmiş mizrabı, simləri varmış.

QOCALDIM

İlk gənclik çağında bir gözəl sevdim,
Əl çatmadı o nigarə, qocaldım.
Həsrətdən nisgildən bir şələ tutdum,
Daşıdıqca mən biçarə, qocaldım.

Zamanın ağrısı acıtdı məni,
Gördüyüm dönüklük sarsıtdı məni.
Xəbislər, naqislər ağrıtdı məni,
Hər baxdıqca günü qara, qocaldım.

Bir yarışdı – aldatmaqda kim kimi,
Keçənləri seyr edirik key kimi.
Bütün bunlar hey ağrıtdı qəlbimi,
Bir ömürdə neçə kərə qocaldım.

Quyu qazmaq xislətimiz dəyişmir,
Bu səbəbdən zillətimiz dəyişmir.
Mürgü basmış millətimiz dəyişmir,
Hər baxdıqca bu diyarə, qocaldım.

# UKRAYNADAN ŞEİR ƏRMƏĞANLARI

Иван Максимович Деменко*

ПОДРУЖЖЮ ГУЛІЄВИХ

*Грайте кріпкої музики*

Грайте кріпкої, музики,
Веселіться, люди!
Заручилися дві долі -
Нехай щастя буде!
Заручилися дві долі, -
Щаслива година!
Він із гордого Кавказу,
Вона з України.
Вітри дужі, вітри буйні
Хай славу розвіють
Від Дніпра від широкого
Аж до хвиль Каспію.
Розкажіть же синім горам
Про карії очі,
Про дівчину як тополю,
Про красу дівочу.
Розкажіть, же буйнесенькі,
Хай гори почують
Про орла про молодого,
Про дружбу святую,
Як два серця молодії
Ніжно покохались,
Як чекали свого щастя

* *Tanınmış ukraynalı astronom – müəllifin dostu.*

І ось дочекались!
Будьте ж гідні свого щастя!

Хай доля сміється!
Таке щастя раз у житті
Тількі раз дається!
Будьте ж гідні, батьків своїх,
Своєї родини!
Будьте ж гідні, син Кавказу,
Дочка України!

*Київ, 28 січня, 1980р.*

Иван Максимович Деменко

С ДРУЗЬЯМИ ЗА СТОЛОМ

*Айюбу и Султану*

У друзей за столом собралиси два орла,
И звёздочка с ними такая.
Воздушно-полётна как все на земле,
И всё же она не земная.

*Припев:*
Друзия собираются в будни порой,
И в праздник – то чаще, то реже.
И звёздочка с ними. А где же звезда?
Вторая? А где же, а где же?

У каждого в жизни дорога своя,
И в счастие, и в схватке той лютой, –
И каждому звёздочка в жизни должна
Светить обручалиным салютом!

*Припев*:
Пусть будет предлинна дорога твоя,
Но будет и время заката.
Но пусть и тогда же, твоя же звезда
Горит как прощание набата.

# MÜNDƏRİCAT

**Müəllifdən ..........................................................................3**
**QƏLƏBƏ ŞEİRLƏRİ ..........................................................................6**
Şuşa igidlərinə .......................................................................... 7
Lələ təpə.......................................................................... 8
Cəbrayıl yolu.......................................................................... 9
Erməni .......................................................................... 10

**QƏLƏBƏ ŞEİRLƏRİ ..........................................................................12**
Azərbaycana xitab .......................................................................... 13
Zirvələr .......................................................................... 14
Kədər .......................................................................... 16
Ürək.......................................................................... 17
Vətən ağrıları.......................................................................... 18
Əsir gözələ.......................................................................... 20

**MUĞAMLAR ..........................................................................21**
Muğamla dialoq .......................................................................... 22
Şur .......................................................................... 24
Rast.......................................................................... 25
Çahargah .......................................................................... 26
Segah.......................................................................... 27
Bayatı–şiraz .......................................................................... 28
Humayun.......................................................................... 29

**AİLƏ MÖVZUSUNDA ..........................................................................30**
Üzünü görmədiyim babama.......................................................................... 31
Ana .......................................................................... 32
Atam salah burcəli oğlunun şeiri.......................................................................... 34

**PALID ƏFSANƏSİ**

Atamın məzarı önündə........................................................ 35
Rafiq Gövhər Həşimov (Əyyub dayıma) ................................ 36

**TƏBİƏT ESGİZLƏRİ..........................................................37**
Batabat................................................................................ 38
Yaylaq ................................................................................. 43
Şahdağı................................................................................ 44
Payız ................................................................................... 46
Bulaq .................................................................................. 47
Dağlar ................................................................................. 48
Ceyran ................................................................................ 51
Bülbülə xitab ...................................................................... 52
Babadağ – 1........................................................................ 53
Babadağ – 2........................................................................ 54
Babadağ – 3........................................................................ 55
Səhlab.................................................................................. 56

**USTADLARA XİTAB ........................................................57**
Nızamısayağı....................................................................... 58
Arasında ............................................................................. 59
Xəqaniyə nəzirə.................................................................. 60
Nəbatiyə nəzirə .................................................................. 61
Hafizə nəzirə....................................................................... 62
Şah İsmayıl Xətaiyə............................................................ 63
Cavad Heyətə ..................................................................... 64
Ustad Şəhrıyara .................................................................. 65
Füzuli divanı....................................................................... 67
Nəsirəddin Tusiyə............................................................... 68
Bir payız axşamı.................................................................. 70
M.Ə.Sabirə nəzirə............................................................... 71
Məmməd Araza.................................................................. 72
Hüseyn Cavidə................................................................... 73

Mişkinaz Cavidə ........ 74
Turan Cavidin ölümünə ........ 75
Ağabəyim Ağaya nəzirə ........ 76
Ayrılıq (Şəhriyara nəzirə) ........ 77
Gəlim (Şəhriyara nəzirə) ........ 78
Borçalı aşığına ........ 79
Növrəs İmana ........ 81
Xanəndə Alim Qasımova ........ 82

**MƏNİM DÜNYAM ........ 83**
Dünya ........ 84
İyirminci əsr ........ 87
Əlli yaşım ........ 88
Divani ........ 89
Palıd əfsanəsı ........ 90

**YURD NƏĞMƏLƏRİ ........ 91**
Yurd nəğmələri (poema) ........ 92
Şahbuzum ........ 110
Kəndim ........ 111
Maarif Təmkinə ........ 112

**DEYİŞMƏLƏR ........ 113**
Tağı Sadiqlə 1-ci deyişmə ........ 114
Tağı Sadiqlə 2-ci deyişmə ........ 117
Tağı Sadiqlə 3-cü deyişmə ........ 119
Tağı Sadiqə ........ 121

**LİRİK ŞEİRLƏR ........ 122**
Sorağındadır ........ 123
Təcnis ........ 124
Bir də ........ 125

**PALID ƏFSANƏSİ**

Bu gecə ........................................................................ 126
Dağa ............................................................................ 127
Ey dost ........................................................................ 128
Gözlər .......................................................................... 129
Aldatmasın ................................................................... 130
İyirmi il ........................................................................ 131
Gözəllik nəğməsi ........................................................... 133
Sənsiz .......................................................................... 134
Yuxu ............................................................................ 135
Qocaldım ..................................................................... 136

**UKRAYNADAN ŞEİR ƏRMƏĞANLARI ........................................ 137**
Подружжю гулієвих .................................................... 138
С друзьями за столом ................................................ 140